

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 18 (809) ■ 11 may 2016 — www.vergiler.az — Qiyməti: 55 qəp.

# Ulu öndər hakimiyyətdə olsaydı, Dağlıq Qarabağ problemi ilə üzləşməzdik



*Mayın 9-da Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə rəsmi qəbul təşkil edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Tədbirdə nitq söyləyən dövlətimizin başçısı faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın çox böyük rol oynadığını bildirib. Qeyd edib ki, altı yüz mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak etmiş, onlardan 300 mini həlak olub. Xalqımız müharibə illərində qəhrəmanlıq göstərib, Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunublar.*

Prezident İlham Əliyev müharibə illərində Azərbaycanın zavodlarında hərbi texnikanın istehsal olunduğunu, müharibənin ən ağır anlarında sovet ordusuna əvəzsiz xidmət etdiyini xatırladıb. Həmçinin, Azərbaycan nefti qələbənin əldə olunmasında çox mühüm rol oynayıb: «Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və sovet ordusunu yanacaqla təmin etmişlər. Sovet ordusunun yanacağının mütləq əksəriyyəti Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi. Bütün bu amillər deməyə əsas verir ki, Azərbaycan Respublikası faşizm üzərində Qələbənin əldə edilməsində çox böyük rol oynamışdır». Prezident İlham Əliyev onu da bildirib ki, Azərbaycan öz tarixi keçmişinə çox böyük hörmətlə yanaşır və ikinci dünya müharibəsində qazanılmış qələbə bizim ümumi qələbəmizdir. «Biz Azərbaycanda həm tarixi həqiqətləri qoruyuruq, imkan vermirik ki, tarix təhrif olunsun, eyni zamanda, müharibə veteranlarını da daim dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik».

Azərbaycan Prezidenti ölkəmizin tarixində digər əlamətdar hadisənin, mayın 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünün qeyd edilməsinə də diqqət çəkib, Heydər Əliyevin Azərbaycan tarixində müstəsna xidmətlər göstərdiyini, böyük tarixi rol oynadığını bildirib. Qeyd edib ki, ümummilli lider iki dəfə Azərbaycana rəhbərlik edib, hər iki dəfə Azərbaycanı tənəzzüldən, anarxiyadan, xaosdan inkişafa, tərəqqiyə doğru aparıb: «1969-cu ildə Azərbaycan Sovet İttifaqı respublikaları arasında ən aşağı yerlərdə qərarlaşmışdı. Heydər Əliyevin səyləri, bacarığı, biliyi, xalqa olan bağlılığı nəticəsində cəmi 13 il ərzində Azərbaycan ən qabaqcıl respublikaya çevrilmişdir. Sovet İttifaqında Rusiya Federasiyasından başqa, cəmi iki respublika var idi ki, onlar mərkəzdən dotasiya almırdı. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda sənaye istehsalı, kənd təsərrüfatı sahələrində, infrastruktur layihələrinin icrasında çox böyük işlər görülmüşdür və o işlər bu gün də müstəqil Azərbaycana kömək göstərir. O illərdə xüsusilə infrastruktur layihələrinin icrası, neft-qaz sektorundakı nəticələr və emal sənayesinin inkişafı sahələrində əldə edilmiş nailiyyətlər bu gün bizə, müstəqil Azərbaycana xidmət göstərir».



Ulu öndərin birinci dəfə hakimiyyətdə olduğu illərdə Azərbaycanda bütün sahələrin inkişaf etdiyini, milli mənəvi dəyərlər, milli ruh, milli ədəbiyyat, mədəniyyətin daim diqqət mərkəzində olduğunu vurğulayıb: «1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edilmişdir. Yəni o illər doğrudan da böyük inkişaf illəri olmuşdur. Heydər Əliyevin fəaliyyətini və böyük nailiyyətlərini nəzərə alaraq, o, Moskvaya dəvət edilmiş və ona çox böyük vəzifə verilmişdir - Sovet İttifaqının Baş nazirinin birinci müavini vəzifəsi. Super dövlətin Baş nazirinin birinci müavini vəzifəsi, əlbəttə, bir daha göstərirdi ki, Heydər Əliyev nə qədər istedadlı, peşəkar və işgüzar adam idi. Həmin illərdə o, fəal işləyirdi, bir çox sahələrə nəzarət edirdi və həmin sahələrdə böyük uğurlar əldə olunurdu. Bununla bərabər, heç vaxt Azərbaycanı unutmurdu və çalışırdı ki, özünün böyük imkanlarından istifadə edib, Azərbaycanı daha da gücləndirsin. Burada bir çox sənaye, infrastruktur layihələri icra edildi. O, Azərbaycanın inkişafına daim diqqət yetirirdi. Hər il məzuniyyətə çıxıb Azərbaycana gəlirdi. Mən yaxşı bilirəm ki, o məzuniyyət formal xarakter daşıyırdı. Çünki o, məzuniyyəti daim görüşlərdə keçirirdi və onun verdiyi tapşırıqlar 1980-ci illərdə Azərbaycanın inkişafına çox böyük xidmət göstərmişdir».

Ulu öndərin ikinci dəfə hakimiyyətdə olduğu 1993-2003-cü illəri inkişaf, sabitlik dövrü kimi qiymətləndirən Prezident İlham Əliyev bu illər ərzində Azərbaycanda siyasi sistemin formalaşdığını, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunduğunu, «Əsrin kontraktı»nın və «Şahdəniz» qaz yatağının işlənməsinə dair sazişin imzalandığını, demokratik islahatlar aparıldığını xatırladıb: «1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin».

2003-cü ildən sonra Heydər Əliyev siyasətinin Azərbaycanda davam etdirildiyini bildirən dövlətimizin başçısı bu siyasətin alternativi olmadığını diqqətə çatdırıb: «Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir. Bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Son illərin tarixi bunu bir neçə dəfə sübut etmişdir. Azərbaycanda vətəndaş cəmiyyəti formalaşıb. Cəmiyyət vahid amal uğrunda birləşib. Azərbaycanın gələcək inkişafı ilə bağlı, inkişafa gedən yollarla bağlı cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Xalq-iqtidar birliyi bu gün bizim inkişafımızın əsas şərtidir, sabitliyimizin əsas amilidir. İctimai-siyasi sabitlik göydən düşmür. Buna nail olmaq üçün düşünülmüş siyasət aparılmalıdır. O siyasət ki, xalqın tələblərinə, ümidlərinə cavab verir».

## Ümummilli liderin məzarı ziyarət edilib

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, onun xatirəsini ehtiramla anıb. Azərbaycan Respublikasının dövlət himni səslənib. Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət ediblər və gül dəstələri qoyublar.

## Ulu öndərin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyası

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış olublar. Prezident İlham Əliyevə 2008-2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verib. Bildirilib ki, həmin müddətdə Bakı-Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı-Qazax magistral avtomobil yolunun Ələt-Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı-Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı-Astara magistral avtomobil yolunun Ələt-Salyan hissəsində 500 minə yaxın ağac əkilib. Beləliklə, 2008-2016-cı illərdə respublika ərazisində nazirlik tərəfindən sahəsi 3776 hektar, uzunluğu isə 190 kilometr olan ərazidə ümumilikdə 4 milyon 826 mindən çox ağac əkilərək onlara zəruri aqrotexniki qulluq göstərilib.

Dövlətimizin başçısına məlumat verilib ki, indiyədək Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu isə 20 kilometr olan ərazidə 58 növdə bir milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, lələk, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkiblər, ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

# Azərbaycan faşizm üzərində Qələbəyə mühüm töhfələr verib



İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Müharibə veteranları ilə görüşən Prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik edib və ən xoş arzularını çatdırıb. Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Dövlətimizin başçısının bu il imzaladığı sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqradın mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və «Leninqradın müdafiəsinə görə» medalı, «Leninqrad mühasirəsində yaşayan» döş nişanı ilə təltif edilmiş şəxslərə Prezidentin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilib. Azərbaycan Prezidentinin imzaladığı digər sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına 1000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, Böyük Vətən müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. 2016-cı ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Veteranlar Təşkilatına 500 min manat ayrılıb.

# Əsl vətənpərvər, böyük lider – Heydər Əliyev



*Tarixdə şəxsiyyətlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin gələcək əks-sədaları, uzun illər hadisələrin axarına təsiri ilə müəyyənləşir. Tarixən zamanın nəbzini tutmağı, hadisələrə obyektiv qiymət verməyi, siyasi potensialını düzgün dəyərləndirməyi bacaran liderlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər. Müdrik və təcrübəli dövlət xadimləri ən ekstremal şəraitlərdə çətin vəziyyətdən az itki ilə çıxış imkanına malik olmaqla optimal qərarlar qəbul edir, həyatlarını riskə atmaqdan belə çəkinmirlər.*

Ulu öndər Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi çağdaş tariximizə möhürünü vurmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə biganə qalmayan Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir.

Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini əldə etsə də, defakto bu niyyətini reallaşdıra bilməmiş, hakimiyyəti ələ keçirən naşı və səriştəsiz qüvvələr ölkənin keyfiyyətcə yeni mərhələdə üzləşdiyi problemlərin öhdəsindən gələ bilməmişlər. Nəticədə respublikada iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. Böhranlı və ağır vəziyyətdə olan xalqın çıxış yolunu yenə də müdrik rəhbərinin - ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görməsi bir sıra obyektiv reallıqlarla şərtlənirdi. Əksəriyyət başa düşürdü ki, yaranmış ekstemal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qiyamı yatırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə - alternativsiz lider məhz Heydər Əliyevdir!

Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçilməsi isə onun sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş, qəhrəmanlıq tarixidir. Əgər xalqın təkidi ilə Heydər Əliyev həmin gün yenidən hakimiyyətə gəlməsəydi, bugünkü müstəqil Azərbaycanın varlığından danışmaq, çətin ki, mümkün olacaqdı.

Ümummilli lider Heydər Əliyev bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Heydər Əliyev qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu önə çəkən Heydər Əliyev xarici şirkətlər ilə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına strateji məsələ kimi yanaşmışdır. XX əsrin qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən «Əsrin müqaviləsi» Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir.

Ulu öndər Heydər Əliyevin sərhəd tanımayan dövlətçilik fəaliyyətində milli-mənəvi, əxlaqi məsələlər də xüsusi yer tutmuşdur. Bütün böyük siyasi xadimlər kimi, Heydər Əliyev xalqının ümummədəni tərəqqisinin qayğısına qalmış, yaşadığı ölkənin, mənsub olduğu xalqın dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə yüksəlməsinə ciddi diqqət yetirmişdir. Heydər Əliyevin ana dilinə böyük qayğısı, sədaqəti, dərin məhəbbəti onun yalnız əsl vətəndaşlıq, yüksək qürur hissləri ilə bağlı deyildi, bu, eyni zamanda, onun öz ana dilini dərindən bilmək, həmin dilin bütün daxili sirlərinə, gözəlliklərinə vaqif olmaq və ondan məharətlə istifadə edə bilmək istedadından irəli gəlirdi. Ulu öndər xaricdə yaşayan soydaşlarımıza da məhz milli dili unutmamağı, onu yaşatmağı son dərəcə ciddiliklə tövsiyə edirdi.

Bu gün əminliklə demək olar ki, müstəqil Azərbaycanın hazırkı böyük və həlledici uğurları Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konsepsiyasına istinad edərək yeni-yeni zirvələrə doğru irəliləyir. 2003-cü ildən ölkəyə inamla rəhbərlik edən cənab İlham Əliyev mütərəqqi inkişaf strategiyasını davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır. Dövlət başçısı İlham Əliyevin prezidentliyi dövründə məhz bu istiqamət əsas götürülmüş və iqtisadiyyat həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir.

70 il inzibati-amirlik sistemində yaşamış, iqtisadiyyatı dağılmış bir respublikanın qısa müddətdə qazandığı nailiyyətlərin miqyası Azərbaycanla genişmiqyaslı əməkdaşlığa maraq göstərən beynəlxalq təşkilatlarda, habelə aparıcı Qərb dövlətlərində də heyrət doğurur. Respublikamızın iqtisadi yüksəliş və demokratikləşmə sahəsində həlledici nailiyyətlərə imza atmasını şərtləndirən amillər, təbii olaraq, siyasi və elmi-fəlsəfi çevrələrdə də geniş diskussiya mövzusuna çevrilmişdir. Ümumi qənaət bundan ibarətdir ki, bu sürətli inkişaf və tərəqqi prosesində Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, dövlətinin taleyini cənab İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir.

Dövlət rəhbərinin müəyyən etdiyi prioritetlərin uğurla icrasına ümumxalq dəstəyi daim özünü qabarıq göstərir. Bu gün Azərbaycan xalqı alternativsiz lideri olan cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və həmrəyliyin qarantı hesab edir, ona bütün varlığı ilə güvənir, ölkəmizin mənafelərinə xidmət göstərən amalların həyata keçirilməsində öz rəhbərinə dəstəyini əsirgəmir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanın parlaq, firavan sabahına aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir, bu siyasəti birmənalı dəstəkləyir.

**Anar ƏLİYEV**

# Azərbaycanda biznes ombudsmanı yaratmaq təklif olunub

Son vaxtlar maliyyə və bank sahəsində meydana çıxan problemlər, xüsusilə də bank kreditlərinin ödənilməsində yaranan çətinliklər bir çox ölkələrdə etibarlı qurum kimi fəaliyyət göstərən maliyyə ombudsmanının Azərbaycanda da yaradılmasını aktuallaşdırıb. Həm bank-kredit və sığorta təşkilatları, həm də müştərilər üçün çox faydalı hesab edilən bu qurum yaranmış problemlərin məhkəmə müstəvisinə çıxmadan həllinə kömək edir, mübahisələrin hüquqi yolla nizamlanmasına şərait yaradır. «İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin rəhbəri Ruslan Atakişiyev belə bir təkliflə aidiyyəti təşkilatlara müraciət olunduğunu bildirib.

Azərbaycan Banklar Assosiasiyasının rəhbəri Zakir Nuriyev təklifi dəstəklədiyini, bu təşəbbüsün banklarla müştərilər arasında yeni münasibətlərin formalaşmasına səbəb olacağına əminliyini bildirib. Qeyd edib ki, vətəndaşların böyük bir qisminin maliyyə sahəsində yetərincə məlumatlı olmamaları onların problemlərlə üzləşməsinə gətirib çıxarır. Yeni institutun insanlara hüquqi biliklərin verilməsi və onların qanunvericilik, qaydalar və təlimatlar haqqında məlumatlandırılması sahəsində pulsuz xidmət göstərməsi yarana biləcək mübahisələrin də azalmasına səbəb ola bilər. Maliyyə Nazirliyi də maliyyə sektorunda istehlakçıların hüquqlarının daha yaxşı qorunması və yaranan problemlərin operativ həll edilməsi məqsədilə maliyyə ombudsmanı institutunun yaradılmasının tərəfdarıdır. Hazırda bu məsələ müvafiq qurumlarla birgə müzakirə edilir və qanunvericilik bazası həll edildən sonra belə bir qurumun fəaliyyətə başlaması mümkün olacaq.

Ekspertlərin rəyinə görə, maliyyə ombudsmanı daha çox bank sektoru, qiymətli kağızlar bazarı və sığorta sahəsində yaranan problemlərin həlli, maliyyə təşkilatları və fiziki şəxslər arasında yaranmış mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılması ilə məşğul olduğundan, bu orqanın bütün sahibkarların hüquqlarını müdafiə etməsi mümkün deyil. Azərbaycanda sahibkarların hüquq və mənafelərinin daha etibarlı şəkildə qorunması məqsədilə biznes ombudsmanının yaradılması daha məntiqli görünür. İqtisadçı Məhəmməd Talıblı bildirib ki, bir təsisat olaraq, məhz biznes ombudsmanının yaradılması ümumilikdə biznes subyektlərinin problemlərinin həll olunması, sahibkarların hüquqlarının qorunması baxımından daha faydalı olardı. Bu, sahibkarlıq sahəsində yaranan boşluqları aradan qaldırmağa kömək edər, biznes sahəsində bir növ nəzarət funksiyasını həyata keçirə bilər. Bu nəzarət sayəsində biznesdə yarana biləcək problemlərin qarşısı öncədən alına bilər.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, dünyanın bir çox ölkələrində fəaliyyət göstərən bu ictimai institut mühüm prosessual statusa malikdir və ölkədə biznesin inkişafına, investisiya mühitinin yaxşılaşdırılmasına öz töhfəsini verir. Keçmiş SSRİ məkanında Gürcüstan, Rusiya və Ukraynada bu cür təşkilatlar bir neçə ildir fəaliyyət göstərir. Dövlət strukturları ilə sıx əlaqədə olan biznes ombudsmanı iqtisadi mübahisələrin həllində və sahibkarların hüquqlarının məhkəmələrdə qorunmasında fəal rol oynayır.

Kənd təsərrüfatı üzrə mütəxəssis Rizvan Mustafayev də aqrar sahədə həlli zəruri olan xeyli problemləri nəzərə alaraq belə bir institutun yaradılmasını vacib sayır. Onun rəyincə, kənd təsərrüfatında sığorta sistemi işləmədiyindən fermerlər tez-tez problemlərlə üzləşirlər. Mülkiyyətçilərin kredit alması və girov mexanizmində də uyğunsuzluqlar var. Bu və digər çətinliklər nəzərə alınmaqla aqrar sahədə çalışan sahibkarların hüquqlarının müdafiəsi baxımından ombudsmanın rolu faydalı olardı.

Ombudsman Aparatının əməkdaşı Mahir Məmmədovun sözlərinə görə, ombudsman institutunun işinin istiqamətlərindən biri də bizneslə məşğul olan insanların hüquqlarının müdafiəsi və bərpasını təmin etmək, yarana biləcək hər hansı hüquq pozuntusu hallarının qarşısının alınmasıdır. Ombudsmanın strukturlarından biri olan iqtisadi və sosial hüquqların müdafiəsi sektoru biznes və iqtisadiyyat sahəsində daxil olan şikayətləri araşdıraraq müvafiq qərarlar çıxarır. İnsan haqları üzrə ombudsman sahibkarların hüquq və maraqlarının qorunmasında iştirak edən hər bir ictimai qurumla sıx əməkdalığa açıqdır və yeni yaradılan ictimai təşkilat və şuraların fəaliyyəti ümumi işin xeyrinə ola bilər.

İqtisadiyyat Nazirliyi də sahibkarların hüquq və mənafelərinin qorunmasına xidmət edən bütün təşəbbüsləri dəstəklədiyini, sahibkarların ictimai təşkilatları ilə sıx əməkdaşlığa hazır olduğunu bəyan edir. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, sahibkarların hüquqlarının qorunması daim diqqət mərkəzində saxlanılır, yerli və mərkəzi icra hakimiyyəti orqanlarında yaradılan apelyasiya şuraları sahibkarların hüquqlarının müdafiəsi yönündə mühüm strukturlar hesab oluna bilər. Hər bir sahibkar onun fəaliyyətinə müdaxilə edən, onu incidən qurumun nümayəndəsi barədə şuraya müraciət etməklə problemin həllinə nail ola bilər. Son zamanlar yerli icra hakimiyyəti orqanlarının verdiyi qərarların, daxil olan şikayətlərin araşdırılmasının yekunu göstərir ki, əksər hallarda qanunun mənafeyinə uyğun qərar qəbul edilir.

**Elbrus CƏFƏRLİ**

# Ənənəvi şahmat turniri başa çatdı

May ayının 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş vergi xidməti əməkdaşları arasında ənənəvi şahmat turnirinə yekun vurulub.

Aprel ayının 23-də start verilən və olimpiya sistemi üzrə keçirilən turnirin qalibi Vergilər Nazirliyinin 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı Ayaz Məmmədov olub. Nazirliyin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin əməkdaşı Fərid İsayev 2-ci, Bakı Vergilər Departamentinin əməkdaşı Turabi Əliyev isə 3-cü yeri tutub.

Yarışın gərgin idman mübarizəsi və maraqlı rəqabət şəraitində keçdiyini bildirən Vergilər Nazirliyi Aparatının rəhbəri Əli Həsənov qaliblərə diplomlar təqdim edib.



# Elektron bələdçilər turistlərə xidmət göstərəcək

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkəmizə hər il orta hesabla 2,5 milyon turist gəlir. Turist axınının çoxalması nəticəsində Azərbaycanda iri turizm şirkətlərinin və mehmanxanaların sayı əhəmiyyətli dərəcədə artıb. Bütün bu faktlar turizm sahəsində fərqli bir layihənin - «Robie Guide»ın tətbiqinə zəmin yaradıb. Elektron bələdçisi funksiyasını həyata keçirən bu layihə qlobal bazarda turizm sahəsində yeni tendensiyaları təmsil edir.

Təkcə paytaxt Bakını deyil, bütövlükdə Azərbaycanı əhatə edəcək «Robie Guide» ölkənin bütün tarixi abidələri, binalar, restoranlar, əyləncə mərkəzləri, ofislər və digər obyektlər barədə ətraflı məlumatı səsli (audio) və yazılı şəkildə istifadəçiyə təqdim edəcək. Məlumatlar istifadəçinin seçimindən asılı olaraq üç dildə - Azərbaycan, rus və ingilis dillərində təqdim olunacaq. Bundan əlavə, istifadəçilər xüsusi proqram vasitəsilə ətrafda olan əyləncə və istirahət mərkəzləri, otellər, ofislər, tarixi abidələr, restoranlar, menyular, onların qiymətləri və s. barədə məlumat əldə edə biləcəklər.

Layihə çərçivəsində ilk dəfə olaraq «Android» əməliyyat sistemi istifadəçiləri üçün mobil tətbiq hazırlanıb, «iOS» və «Windows Phone» istifadəçiləri üçün də xüsusi proqramların yazılması nəzərdə tutulub. Proqram «Microsoft» sistemi, «Google Map» və «E-gov» «API»ləri üzərindən də istifadə ediləcək.

Layihənin rəhbəri Namət Məmmədzadə bildirib ki, bu sistemin innovativliyi bundadır ki, ölkəyə gələn turistlərin artıq turizm agentliklərinə müraciət etmələrinə və ya bələdçiyə pul ödəməyə ehtiyacı qalmır. Yerli və xarici turistlər proqramı mobil telefona yükləyir və bununla da turist şəhərə çıxdığı zaman öz istəyindən asılı olaraq, sistem istiqamət seçərək onun telefonuna məlumat ötürür. Qeyd olunub ki, layihə turistlərin işini asanlaşdırmaqla yanaşı, əsas məqsəd olaraq Azərbaycanı tanıtmağa və ölkədə turizmin səviyyəsini yüksəltməyə xidmət edəcək: «Son illər ölkəmizdə keçirilən mötəbər beynəlxalq tədbirlər də turist axınına böyük təkan verir. Bunların davamı olaraq, şahmat olimpiadasını, cari ilin yay aylarında keçiriləcək «Formula 1» Avropa qran-pri yarışlarını qeyd etmək olar. Biz bu layihə vasitəsilə ölkəyə gələn turistlərin rahatlığını təmin etməklə yanaşı, həm də ölkəmizin mədəniyyətinin, füsunkar təbiətinin, tarixi abidələrinin, müasir və gözoxşayan tikililərinin təbliğinə də yardımçı olmaq niyyətindəyik».

**RƏŞAD**

# İnformasiya açıqlığına görə Vergilər Nazirliyi ən yaxşı dövlət qurumlarındandır



*Prezident İlham Əliyevin bu günlərdə imzaladığı sərəncamla «Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı» təsdiq edilib. Sənəddə dövlət orqanlarının fəaliyyətinin müasir tələblər əsasında idarə olunması və ictimai nəzarətin artırılması, vətəndaş-məmur münasibətlərinin azaldılması və şəffaflığın təmin edilməsi, innovasiyaların və informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, sahibkarların hüquqlarının müdafiəsi və digər məsələlər öz əksini tapıb. «Konstitusiya» Araşdırmalar Fondunun rəhbəri, «Açıq hökumətin təşviqi» koalisiyasının üzvü Əlimämməd Nuriyevlə söhbətimiz də bu mövzudadır.*

***- Əlimämməd müəllim, icrası başa çatan «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» çərçivəsində görülən işləri necə qiymətləndirmək olar?***

- Azərbaycan hökuməti şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər keçirir və açıq hökumət prinsipləri bu prosesin ayrılmaz hissəsi olub. Respublikamız müasir idarəetmə prinsiplərinin tətbiqi, şəffaflığın və hesabatlılığın təmin olunması, ictimai nəzarət sisteminin yaradılması məqsədilə 2011-ci ildə Beynəlxalq Açıq Hökumət Təşəbbüsünə qoşularaq bundan irəli gələn məsələlərin həlli ilə bağlı «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» hazırladı və sənədin icrasına başlanıldı. Milli Fəaliyyət Planında 9 istiqamət və 36 bənd üzrə tədbirlərin görülməsi nəzərdə tutulmuşdu. Sənədin icra olunduğu 4 il ərzində müəyyən edilmiş istiqamətlər üzrə bir sıra işlər görüldü. Elektron xidmətlərin tətbiqinə başlandı, bu xidmətlərin çeşidi genişləndi. «E-hökumət» portalı yaradıldı və bütün dövlət strukturlarının portala inteqrasiyası təmin olundu. E-xidmətlərin interaktiv formada təqdim edilməsi sahəsində mühüm addımlar atıldı.

Bu strategiya çərçivəsində əldə olunan ən böyük uğurlardan biri dövlət orqanları tərəfindən əhaliyə göstərilən bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli və rahat həyata keçirilməsini təmin etmək məqsədilə 2012-ci ilin iyul ayında yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət») fəaliyyətə başlaması oldu. Dövlət xidmətlərinin göstərilməsində tətbiq edilən və Birləşmiş Millətlər Təşkilatının 2015-ci il «Dövlət xidmətləri mükafatı»na layiq görülmüş innovativ «ASAN xidmət» modeli bu gün açıq hökumət prinsiplərini həyata keçirən bir çox ölkələr üçün nümunəyə çevrilib.

Açıq hökumətin prinsiplərindən biri olan ictimai iştirakçılığın genişlənməsi üçün qanunvericilik bazasını təmin edən «İctimai iştirakçılıq haqqında» Qanunun qəbul edilməsi də ötən dövrün mühüm uğurlarından hesab oluna bilər. Bu qanunun icrası dövlət orqanları yanında ictimai şuraların yaradılmasına, ictimai iştirakçılığın artırılmasına təkan verir. Nəticədə vətəndaşların informasiya əldə etmək imkanlarının hüdudları genişlənib və onlara dövlət məmurları ilə bilavasitə təmasa girmədən xidmətlərdən yararlanmaq, öz şikayət və təkliflərini bildirmək, məlumat almaq imkanları yaradılıb.

Fəaliyyət Planının icrası ilə əlaqədar maliyyə-fiskal sahələr üzrə şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi əsas hədəflər kimi qarşıya qoyulub və bu istiqamətlərdə də müəyyən irəliləyişlərə nail olunub. Auditin təkmilləşdirilməsi sahəsində mühüm işlər görülüb, yoxlamaların vahid reyestri yaradılıb...

Beləliklə, strategiya çərçivəsində görülən işləri qənaətbəxş hesab etmək olar. «Şəffaflıq Azərbaycan» Korrupsiyaya qarşı mübarizə ictimai birliyinin apardığı monitorinqin nəticələrinə görə, Fəaliyyət Planı 6 istiqamət üzrə 100 faiz, digər istiqamətlər üzrə 70-80 faiz arasında yerinə yetirilib.

***- Dövlət qurumlarında internet resurslarının ictimaiyyətə daha geniş istifadə üçün məlumatlarla təmin olunması və elektron xidmətlərin təşkili sahəsində görülmüş işlər barədə nə deyə bilərsiniz?***

- İnformasiya açıqlığı və e-xidmətlər sahəsində ümumi vəziyyət qənaətbəxş olsa da, bir sıra dövlət orqanlarının fəaliyyəti nəzərdə tutulmuş tələblərə hələ cavab vermir. «İnformasiya əldə etmək haqqında» Qanunda göstərilir ki, icra orqanları 35 adda informasiyanı saytlarında yerləşdirməlidir. İcra orqanlarının əksəriyyətinin bu sahədə fəaliyyəti çox zəifdir. Bu sahə üzrə 2015-ci ilə dair apardığımız təhlillərə görə, mərkəzi icra orqanlarında ümumilikdə sözügedən qanunun tələblərinə ümumilikdə 55 faiz riayət olunur. Bəzi yerli icra orqanlarında isə bu rəqəm lap aşağı səviyyədədir. Onu da qeyd etməyi zəruri hesab edirəm ki, bəzi mərkəzi icra orqanları informasiyanın çatdırılması sahəsində işini daha yaxşı qurub və onların sırasında Vergilər Nazirliyi yenə də öndədir. E-xidmətlər sahəsində ilk işləri də bu nazirlik həyata keçirib və «E-hökumət» portalına inteqrasiya olunub. Vergilər Nazirliyində artıq, demək olar ki, bütün xidmətlər tam elektronlaşıb və ən yaxşı e-xidmətlər tətbiq edən qurum sayılır. Müsbət haldır ki, vergi orqanları vətəndaş cəmiyyəti ilə fəal əməkdaşlıq qurub. Nazirlik vətəndaşların müraciətlərinin araşdırılması, problemlərin həlli ilə bağlı digər dövlət orqanlarından bir neçə il əvvəl Apelyasiya Şurası yaradıb. Bu, vətəndaş-məmur münasibətlərinin müasir əsaslarla qurulmasına öz töhfəsini verib.

***- Milli Fəaliyyət Planının əhatə etdiyi istiqamətlərdən biri də vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılmasıdır. Bu sahədə hansı işlərin görülməsinə ehtiyac var?***

- Əvvələn, deyim ki, icrası başa çatan Fəaliyyət Planında ən yaxşı səviyyədə yerinə yetirilən vəzifələr sırasında vergiyə aid sahələr xüsusi yer tutur. Biznesə başlama, qeydiyyat prosesinin təkmilləşdirilməsi, könüllü əməletmə, inzibatçılıq və nəzarət sisteminin sadələşdirilməsi sahəsində əhəmiyyətli işlər görülüb. Monitorinqin nəticələri göstərir ki, vergi nəzarəti yüksək səviyyədə qurulmuş işlək mexanizmlərdəndir. Hətta qanunla vergi orqanlarına sahibkarlıq sahəsində yoxlamaların aparılması qadağan edilməsə belə, Vergilər Nazirliyi bəzi yoxlamaları dayandırmaqla nəzarət sahəsində şəffaflıqda maraqlı olduğunu bir daha təsdiqlədi.

Yeni Milli Fəaliyyət Proqramında da vergi orqanları qarşısında mühüm vəzifə və tapşırıqlar qoyulub. Maliyyə şəffaflığının təmin edilməsi məqsədilə dövlət maliyyə nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarətin təkmilləşdirilməsi ilə bağlı məsələlərə geniş yer verilib və bu sahədə icraçı orqanlardan biri Vergilər Nazirliyidir. Sahibkarların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi, iqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi ilə əlaqədar bütün mərkəzi icra orqanları qarşısında vəzifələr qoyulub və bu sahədə vergi orqanlarının olduqca böyük rolu var. Bundan başqa, özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflərin və maarifləndirici materialların hazırlanması və yayılmasının təşkili ilə əlaqədar İqtisadiyyat və Vergilər nazirlikləri qarşısında mühüm tapşırıqlar qoyulub.

***- Yeni təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»nın qarşıdakı dövr üçün əsas hədəfləri hansılardır?***

- Yeni Fəaliyyət Planının hazırlanmasında hökumətin yanaşması çox maraqlıdır. Dövlət Korrupsiyaya qarşı Mübarizə Komissiyası ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının hazırladığı sənəd də ictimaiyyətin müzakirəsinə çıxarıldı. Dövlət orqanları, QHT-lər, ictimaiyyət nümayəndələrinin iştirakı ilə aparılan geniş müzakirələrin yekunu olaraq belə qərara gəlindi ki, hər iki sənəd birləşdirilsin və vahid Fəaliyyət Planı hazırlansın. Dövlət başçısı tərəfindən təsdiq olunan «Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»nın bütün tərəflərin, o cümlədən QHT-lərin antikorrupsiya şəbəkəsinin rəy və təkliflərinin tam nəzərə alındığı sənəd hesab etmək olar. Planın icrası ilə əlaqədar hökumət və vətəndaş cəmiyyətlərinin platforması yaradılacaq. Bu isə şəffaflıq və hesabatlılıq baxımından mühüm əhəmiyyət kəsb edir. Yeni sənəd 11 istiqamət və 59 tədbirin yerinə yetirilməsini nəzərdə tutur. Əsas prinsiplərdən biri elektron xidmət növlərinin təkmilləşdirilməsi, tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və «Elektron hökumət» portalına yeni xidmətlərin inteqrasiya edilməsidir. Bununla yanaşı, «E-hökumət» portalından istifadə imkanlarının asanlaşdırılması məqsədilə portalın mobil interfeysinin, mobil tətbiqinin və ödəniş imkanlarının təkmilləşdirilməsi, dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılması, onların elektron versiyasının təqdim olunması nəzərdə tutulub. Bu, mühüm yenilikdir və vətəndaşların hansısa icra orqanına arayış, sənəd təqdim etməsinin qarşısını alacaq, dövlət orqanları «E-hökumət» portalından həmin sənədləri götürərək öz aralarında lazımi ünvanlara təqdim edəcəklər. Məsələn, uşaq bağçasına sənəd verməyə ehtiyac qalmayacaq, valideyn elektron bazada vakant yeri seçib uşağını qeydiyyatdan keçirməklə istədiyi tərbiyə müəssisəsinə qəbul olunmasına nail olacaq. Bu, rahatlıq, vaxt itkisinin qarşısının alınması, kağız daşıyıcılarından istifadənin məhdudlaşdırılması və bürokratik inzibatçılıq hallarının aradan qaldırılmasına şərait yaradacaq.

Milli Fəaliyyət Planında dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi də əsas hədəflərdəndir. Bununla yanaşı, nağdsız ödənişlərin inkişaf etdirilməsi ilə bağlı konkret prioritetlər müəyyən edilib. Regionlarda ödəniş terminallarının sayının artırılması, bütün ödəmələrin nağdsız qaydada aparılması, yerli (bələdiyyə) vergilərin və ödənişlərin elektron terminallar və informasiya sistemi vasitəsilə həyata keçirilməsi və digər məsələlərin icrası nəzərdə tutulub.

Sənəddə vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsinə və ictimai iştirakçılığın artırılmasına da geniş yer verilib. Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet kimi müəyyən edilməsi QHT-lərin üzərinə mühüm vəzifə qoyur.

Hesab edirəm ki, yeni Fəaliyyət Planının icrası ilə dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi, şəffaflığın və hesabatlılığın davamlılığının təmin edilməsi üzrə əhəmiyyətli nəticələr əldə olunacaq.

**Elbrus CƏFƏRLİ**

# «ASAN kommunal» şəffaflığa xidmət göstərəcək

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «ASAN kommunal» mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. Fərman əhaliyə kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması, «ASAN xidmət» təcrübəsinin digər xidmət sahələrində tətbiq edilməsi, xidmətlərin daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirilməsi və bu sahədə vətəndaş məmnunluğunun təmin olunması məqsədi daşıyır.*

Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi fiziki və hüquqi şəxslərə kommunal və digər müştəri xidmətlərinin vahid məkanda, «ASAN xidmət» mərkəzlərinin fəaliyyət prinsipləri və standartları əsasında göstərilməsini təmin edən «ASAN kommunal» mərkəzlərinin yaradılmasını və vahid idarə olunmasını təşkil edəcək.

«ASAN kommunal» mərkəzləri aşağıda göstərilən vəzifələri yerinə yetirəcək:

- kommunal və digər müştəri xidmətlərinin həyata keçirilməsi;
- göstərilən xidmətlərin müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə təşkilini, xidmətlərin təkmilləşdirilməsi məqsədilə innovasiyaların tətbiq olunması;
- vətəndaşların telefon və ya internet müraciətlərinin «Çağrı xidməti» vasitəsilə qəbulu və cavablandırılması;
- nəzarət və qiymətləndirmənin aparılması;
- mərkəzlərdə fəaliyyət göstərəcək əməkdaşlar üçün etik kursların, vətəndaş axınının və münaqişəli halların idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin təşkili;
- xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun ölçülməsi üçün mütəmadi olaraq sorğuların («exit-poll») keçirilməsi;
- mərkəzlərin fəaliyyəti haqqında gündəlik və dövri statistik hesabatların hazırlanması;
- kommunal xidmətlərin göstərilməsi ilə əlaqədar ödənişlərin və digər haqların banklar, ödəmə terminalları və ya «ASAN ödəniş» sistemi vasitəsilə həyata keçirilməsi.

Fərmana əsasən, «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti, «Azərsu» Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin «Azəriqaz» İstehsalat Birliyi fiziki və hüquqi şəxslərə xidmət göstərilməsi sahəsində olan xidmətlərinin «ASAN kommunal» mərkəzlərində həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin həmin mərkəzlərdə onlar üçün müəyyən etdiyi yerləri zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etməsi; müştəri xidmətləri sahəsində funksiyalarının «ASAN kommunal» mərkəzlərinə ötürülməsini («outsource») təmin etməklə həmin xidmətlərin bu mərkəzlərdə göstərilməsi, habelə nəzərdə tutulmuş mərkəzlərin yaradılması və təşkili ilə bağlı xərcləri maliyyələşdirməsi; mövcud informasiya sistemlərinin «ASAN ödəniş» sistemi ilə inteqrasiyasını təmin etməsi ilə bağlı bir sıra tədbirlər görəcəkdir.

Əhaliyə müştəri xidmətləri göstərən digər hüquqi şəxslər Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış qaydada bu fərmanın tələblərinə uyğun qaydada müştəri xidmətlərini «ASAN kommunal» mərkəzlərində həyata keçirə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov bildirib ki, «ASAN kommunal» mərkəzlərinin fəaliyyətinə mayın 5-dən başlanılıb: «Çox qısa müddət ərzində «ASAN kommunal»ın pilot layihəsi fəaliyyətə başlayacaq. Yeni xidmətlər «ASAN xidmət»ə paralel mərkəzlər olacaq». Sədrin sözlərinə görə, hazırda «ASAN» xidmət mərkəzlərində müvafiq kommunal xidmətlər həyata keçirilir: «ASAN kommunal» fəaliyyətə başladıqdan sonra isə bu xidmətlər yeni mərkəzlərdə birləşəcək». Qeyd olunub ki, «ASAN kommunal» mərkəzləri fiziki baxımdan başqa binalarda yerləşəcək: «ASAN xidmət» mərkəzlərinə yaxın, mümkün hallarda bitişik binalarda yerləşməsi nəzərdə tutulub. Mərkəzlərdə vətəndaşlarımız üçün bütün şərait yaradılacaq. Mərkəzləşdirilmiş növbə sistemi, internet-kafelər, uşaqlar üçün xüsusi yerlər təşkil olunacaq. İnformasiya köşkləri vasitəsilə vətəndaşlar məlumatlandırılacaq və «Vahid çağrı mərkəzi» vasitəsilə istədikləri suallara cavab tapa biləcəklər».

İqtisadçı ekspert Vüqar Bayramov «ASAN kommunal» mərkəzlərinin yaradılması vətəndaşların, eləcə də sahibkarların daha az prosedurlardan keçərək, şəffaf şəkildə kommunal xidmətlərdən yararlanmasını təmin edəcək: «İndiyədək kommunal xidmətlər sahəsində müxtəlif kateqoriyalı insanlar üçün tətbiq olunan prosedurların sayı hədsiz çox idi. Bəzi hallarda hətta vətəndaşlardan əlavə ödəniş tələb olunurdu, korrupsiya halları yaranırdı. Süründürməçilik halları vətəndaşlara qısa zamanda kommunal xidmətlərin təmin olunmasına imkan vermirdi. Yeni qaydalar tətbiq ediləndən sonra isə kommunal xidmətlərin göstərilməsində rüşvətin və korrupsiyanın tamamilə aradan qaldırılmasına, şəffaflığa imkan yaranacaq. Bütün sənədləşmələr, eləcə də ödənişlər «ASAN kommunal» vasitəsilə həyata keçiriləcək. Sahibkar-vətəndaş praktiki olaraq kommunal xidmətlərin təqdim edilməsinə məsul olan qurumun əməkdaşları ilə ünsiyyətdə olmayacaq. Kommunal xidmətin göstərilməsinə məsul olan qurumlar yalnız texniki işləri görəcək və xidmətlərin vətəndaşlara çatdırılmasını həyata keçirəcək. Bu, imkan verəcək ki, hər hansı əlavə ödəniş edilmədən və daha qısa bir zamanda kommunal xidmətlərdən istifadə etmək mümkün olsun.

«ASAN kommunal» elektronlaşdırma və asanlaşdırma ilə bağlı islahatların bir elementi kimi yüksək qiymətləndirilməli, kommunal xidmətlərin təşkilində kifayət qədər ciddi bir addım kimi dəyərləndirilməlidir».

İqtisadçı ekspert Pərviz Heydərov hesab edir ki, kommunal xidmət və bu xidmətdən ödənişlərin düzgün, dəqiq və eyni zamanda şəffaf təşkili həmişə aktual məsələ sayılıb: «Ümumiyyətlə, əhaliyə kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması, «ASAN xidmət» təcrübəsinin sözügedən xidmət sahələrində də aparılması, xidmətlərin daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirilməsi, bu sahədə vətəndaş məmnunluğunun təmin olunması həllivacib məsələlərdən idi. Bu addımın atılması vətəndaşların həyatını xeyli asanlaşdıracaq, vaxt itkisinin qarşısını alacaq, eyni zamanda müvafiq xidmət və ödənişlər üzrə mövcud vəziyyəti yaxşılaşdıracaq. Bir müsbət amil də budur ki, xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun ölçülməsi üçün mütəmadi olaraq sorğuların («exit-poll») keçirilməsi də təmin olunacaq».

P.Heydərovun fikrincə, yeni strukturun yaradılması ilə el arasında «JEK» kimi tanınan qurumların gələcəkdə ləğv olunması istiqamətində addımların atılması üçün daha bir zəmin yaranır: «Yəni söhbət kommunal və digər müştəri xidmətlərinin həyata keçirilməsinin keyfiyyətli təşkilindən gedirsə, bu məsələ sırf işıq, qaz və su verilməsi ilə - təchizatın yerinə yetirilməsi və bu sahədə yığımların təmin olunması ilə məhdudlaşmalı deyil. Gələcəkdə bir sıra sahələrdə istismar-amortizasiya xərcləri kimi məsələlər də «ASAN xidmət» təcrübəsindən istifadə əsasında təşkil edilsə, daha yaxşı nəticə əldə etmək olar».

**Fəxriyyə İKRAMQIZI**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi

***Yaşayış və qeyri-yaşayış sahəsinin təqdim olunması ilə bağlı müqavilə sonradan ləğv edilirsə, notarius tərəfindən ödəmə mənbəyində tutulmuş və dövlət büdcəsinə ödənilmiş sadələşdirilmiş vergi məbləği kimə və hansı qaydada qaytarılır?***

Vergi Məcəlləsinin (VM) 15.1.4-cü maddəsinə əsasən, vergi ödəyicisinin artıq ödənilmiş və ya artıq tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək hüququ vardır.

Vergi Məcəlləsinin 17.2-ci maddəsində isə qeyd olunur ki, vergi agentinin, bu Məcəllədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi ödəyicisi ilə hüquqları eynidir.

Vergi Məcəlləsinin 163-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, əvvəlki hesabat dövrləri üzrə təqdim edilmiş hesabatlardakı məlumatlar ilkin uçot sənədləri üzrə məlumatlara uyğun olmadığı hallarda vergi ödəyiciləri tərəfindən həmin hesabat dövrü üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməlidir. Dəqiqləşdirilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləği əvvəl təqdim edilmiş hesabat üzrə büdcəyə ödənilməli vergi məbləğindən çox olduqda, əlavə hesablanmış vergi məbləği faizlərlə birlikdə büdcəyə ödənilir, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır. Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar vergi ödəyicisində səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər (VM, maddə 72.5).

Bu Məcəllədə başqa hallar müəyyən edilməmişdirsə, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalan məbləğləri vergi ödəyicisinin yazılı ərizəsinə əsasən 45 gün ərzində vergi ödəyicisinə qaytarılır (VM, maddə 87.3).

Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğlərinin vergi ödəyicisinə qaytarılması qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir (VM, maddə 87.4).

Nazirlər Kabinetinin 23 fevral 2001-ci il 48 nömrəli qərarı ilə «Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları» təsdiq edilmişdir.

**Qeyd olunanlara əsasən:**

Notarius tərəfindən yaşayış və qeyri-yaşayış sahəsinin təqdim edilməsi əməliyyatı ilə bağlı bəyannamə təqdim edildikdən sonra əməliyyat ləğv edildiyi halda, həmin əməliyyatın vergiyə cəlb edildiyi hesabat dövrü üzrə vergi orqanına dəqiqləşdirilmiş bəyannamə verilməklə hesablanmış verginin məbləği azaldılır və bu əməliyyat üzrə yaranmış artıq ödəniş məbləğinin qaytarılması notarius tərəfindən vergi orqanına müraciət edilməklə Nazirlər Kabinetinin «Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları»na uyğun olaraq həyata keçirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankı fəaliyyəti dövründə, svop əməliyyatları nəzərə alınmadan, bank sektoruna təxminən **1 milyard** manat həcmində kredit verib.
- Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ **730 milyon 802 min 420** manatdan çoxdur.
- «Elektron hökumət» portalı istifadəyə verildiyi tarixdən bu günədək təqdim olunan elektron xidmətlərə müraciət sayı **23 milyondan** artıq təşkil edib.
- 2016-cı ilin yanvar-aprel aylarında Bakı Fond Birjasında (BFB) bütün maliyyə alətləri üzrə **999,5 milyon** manatlıq əməliyyat həyata keçirilib.
- Bu ilin aprelində daşınmaz əmlakın icbari sığortası üzrə **6894** sığorta müqaviləsi bağlanılıb.
- Niderland-Azərbaycan ticarət dövriyyəsinin həcmi **120 mln.** dollar təşkil edir.

# Hökumət ödəniş portalının maliyyə proseslərində rolu artır

«Elektron hökumət» quruculuğunun inkişaf etdirilməsi istiqamətində dövlət orqanları tərəfindən göstərilən xidmətlər üzrə rüsumlara görə ödənişlərin real vaxt rejimində elektron formada qəbulunun təmin edilməsi, büdcə ödənişlərinin aparılması prosesinin sadələşdirilməsi, nağdsız ödənişlərin həcminin artırılması, bank və digər maliyyə qurumları arasında sağlam rəqabət mühitinin yaradılması məqsədilə ölkədə Hökumət Ödəniş Portalı (HÖP) yaradılmışdır.

Portalın infrastrukturundan istifadə olunmaqla ödənişlər qəbul edilərkən büdcə təsnifatının, büdcə səviyyəsinin və büdcə təşkilatının kodu kimi vacib rekvizitlər avtomatik rejimdə müəyyənləşdirilir və ödəniş tranzaksiyasına əlavə edilir. Eyni zamanda, büdcə vəsaitinin toplanılmasına cavabdeh olan dövlət orqanının müvafiq tabeli qurumunun rekvizitləri də ödəniş məlumatlarının tərkibinə daxil edilir. Bununla da ödənişlərin qəbulu prosesi sadələşərək baş verən səhvlərin sayının minimuma endirilməsi və ödəniş tranzaksiyalarının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin və Vergilər Nazirliyinin daxili informasiya sistemlərində avtomatik emalı təmin edilir.

Hazırda respublikanın dövlət sektorunda fəaliyyət göstərən «Azərişıq» ASC, «Azərsu» ASC, «Azəriqaz» İB, «Azəristiliktəchizat» ASC kimi kommunal xidməti təşkilatları, Maliyyə, Vergilər, İqtisadiyyat, Fövqəladə Hallar, Daxili İşlər, Təhsil, Energetika nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti HÖP-ün infrastrukturuna inteqrasiya olunub. Bunlardan əlavə, stasionar telefon xidmətləri və mobil rabitə operatorları da portala qoşulublar.

Ödənişləri nağd formada bank və ya poçt bölmələri, ödəniş terminalları, internet üzərindən və bankomatlardan ödəniş kartları vasitəsilə həyata keçirmək mümkündür. Onu da qeyd etmək lazımdır ki, müvafiq qanunçuluğa əsasən, HÖP-ün çıxarışları ciddi uçot blankına bərabər tutulur.

HÖP üzərindən aparılan əməliyyatların sayı (min ədəd ilə)




HÖP üzərindən aparılan əməliyyatların həcmi (milyon manat)




**A.NƏBİYEVA**

# Pensiyaçıların sosial müdafiəsi gücləndirilir

Azərbaycan Respublikasının «Əmək pensiyaları haqqında» Qanununda əmək pensiyasının yaşa, əlilliyə və ailə başçısını itirməyə görə növləri təsbit olunub.

Yaşa görə əmək pensiyası - buna hüququ olan şəxsin müraciəti əsasında həmin hüququn yarandığı gündən ömürlük təyin edilir. Pensiya təyin edilməsi üçün müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi, ümumi iş stajını təsdiq edən sənədlər təqdim olunmalıdır. Zəruri hallarda isə uşaqların doğum günü və onların 8 yaşadək tərbiyə edilməsi haqqında arayış, atanın 5 və daha çox uşağı növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək tərbiyə etməsinə dair arayış, ərizəçinin vəfat etmiş ananın uşağını təzə ailədə 8 yaşına çatanadək faktiki tərbiyə etməsini təsdiq edən sənəd, ərizəçinin əmək pensiyasının baza hissəsinə əlavə hesablanması hüququnu təsdiq edən sənədlər də təqdim olunur.

Əlilliyə görə əmək pensiyası - buna hüququ olan şəxsin müraciəti əsasında əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun müəyyən olunduğu gündən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi bütün əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu dövrü üçün, «Əmək pensiyaları haqqında» Qanuna uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə isə ömürlük təyin edilir. Bu pensiya növünün təyin edilməsi üçün müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi, ümumi iş stajını təsdiq edən sənədlər, Tibbi-Sosial Ekspert Komissiyasının əlilliyi təsdiq edən müayinə aktından çıxarış, müddətli hərbi xidmətdə olan hərbi qulluqçuya əlilliyə görə pensiya təyin edilməsi barədə ərizəyə hərbi qulluqçunu hərbi uçotdan çıxarmış hərbi komissarlıq tərəfindən təsdiq edilən və verilən xəstəlik haqqında şəhadətnamənin surəti və ya hərbi-tibbi komissiyanın arayışı, əlillik hərbi qulluqdan buraxıldıqdan sonra baş vermişdirsə, xəstəlik haqqında şəhadətnamənin surəti əvəzinə hərbi qulluq keçmək haqqında hərbi komissarlıq tərəfindən verilən arayış təqdim olunur. Bundan başqa, zəruri hallarda əmək pensiyasının baza hissəsinə əlavə hesablanması hüququnu təsdiq edən sənədlər də lazım olur.

Ailə başçısını itirməyə görə əmək pensiyası - buna hüququ olan şəxsin müraciəti əsasında ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən «Əmək pensiyaları haqqında» Qanunun 14-cü maddəsində göstərilmiş şərtlərin mövcud olduğu müddət üçün, bu Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə isə ömürlük təyin edilir. Ailə başçısını itirməyə görə pensiya növü üzrə pensiya təyin edilməsi üçün müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi, ailə üzvlərinin vəfat etmiş ailə başçısı ilə qohumluq münasibətlərini təsdiq edən sənəd, ailə başçısının ölümü barədə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanın şəhadətnaməsi və ya onun itkin düşməsini təsdiq edən sənəd, vəfat etmiş ailə başçısının ümumi iş stajını təsdiq edən sənəd lazım olur. Bundan başqa, zəruri hallarda digər sənədlər də tələb edilir.

Hazırda ölkəmizdə əmək pensiyası alan şəxslərin sayı 1.303.252 nəfər təşkil edir. Onlardan 536.659 nəfəri kişi, qalanları qadınlardır. Əmək pensiyası ilə təmin olunanların 781.576 nəfəri yaşa görə, 375.884 nəfəri əlilliyə görə, 145.792 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alır. Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2016-cı il tarixli «Əmək pensiyalarının baza hissəsinin artırılması haqqında» sərəncamına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılıb. Habelə dövlət başçısının müvafiq sərəncamı ilə əmək pensiyalarının sığorta hissəsinin əvvəlki ilin 4 faizlik istehlak qiymətləri indeksinə uyğun artırılması həyata keçirilib. Beləliklə, məqsədyönlü tədbirlərin nəticəsi kimi, respublikamızda əmək pensiyalarının orta aylıq məbləği 2016-cı ilin əvvəli ilə müqayisədə 6,8 faiz artaraq 189,9 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 210,8 manata çatıb. Yaşa görə əmək pensiyalarının orta aylıq məbləği ölkə üzrə əməkhaqlarının orta aylıq məbləğinə nisbəti 44,6 faiz təşkil edir ki, bu da beynəlxalq standartlara, habelə Avropa Sosial Xartiyasının tələblərinə uyğundur.

Əmək pensiyası ilə təmin olunanlar




**AYTƏN**

# Kadastr xidməti elektronlaşdırılır

Əmlak Məsələləri Dövlət Komitəsi Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin yaradılması və rəqəmsal kadastr xəritələrinin tərtibi ilə bağlı Bakı və regionlarda işgüzar forumlar keçirməyi davam etdirir. Forumların məqsədi respublika üzrə sistemin fəaliyyət göstərməsi və rəqəmsal kadastr xəritələrinin tərtibi istiqamətində həyata keçirilən tədbirlər barədə ictimaiyyəti məlumatlandırmaq, maarifləndirmə işləri aparmaqdır.

İlk forum Cəlilabad və Masallı rayonlarında təşkil olunub. Daşınmaz əmlakın kadastrı və ünvan reyestri xidmətinin rəisi Ramiz Quliyev bildirib ki, görülən işlər Azərbaycan Respublikası Prezidentinin torpaqların elektron uçotunun aparılması ilə bağlı tapşırıqlarına və 7 mart 2016-cı il tarixli fərmanına əsasən həyata keçirilir. Fərmanda torpaq münasibətlərinin səmərəli tənzimlənməsi məqsədilə «Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin yaradılması və ölkə üzrə rəqəmsal kadastr xəritələrinin tərtibi qaydaları» da əksini tapıb. Fərmana əsasən, torpaqların elektron uçotu ilə əlaqədar ictimaiyyətin maarifləndirilməsi, görülən işlər barədə məlumatlandırma tədbirlərinin həyata keçirilməsi barədə tapşırıqlar verilib.

Qeyd olunub ki, müasir coğrafi informasiya sistemləri, geodeziya avadanlıq və cihazları tətbiq edilməklə hazırda dövlət, xüsusi və bələdiyyə mülkiyyətində olan bütün kateqoriyalı torpaqların elektron uçotu aparılır. Artıq ölkə üzrə elektron kadastr xəritələrinin tərtibi işləri həyata keçirilir. 2016-cı ildə bu işlər respublikanın 23 rayonunda icra ediləcəkdir. 2019-cu ilin sonuna ölkənin 3 milyon 200 min hektar ərazisində dəqiq torpaq uçotu işləri aparılacaqdır. Torpaq uçotu işləri yekunlaşmış Bakı, Sumqayıt, Gəncə şəhərlərinin bələdiyyə xəritələrinin tərtibi işinə başlanılıb. Bildirilib ki, 2020-ci ilə Azərbaycanın bütün torpaqlarının uçotunun aparılması yekunlaşdırılacaq, torpaqlar təkcə kəmiyyətinə görə deyil, həm də keyfiyyət göstəricilərinə görə uçota alınacaqdır. Bu sistemin mövcudluğu və rəqəmsal kadastr xəritələrinin istifadəyə verilməsi ölkədə kadastr xidmətinin də bütövlükdə elektron xidmətlər sırasına keçməsinə şərait yaradacaqdır. Sistem özündə torpaqların dəqiq sərhədləri, həndəsi ölçüləri, konfiqurasiyası, koordinatları, mülkiyyət mənsubiyyəti, kateqoriyası, mühafizə zonaları, kadastr xəritələri, keyfiyyət və iqtisadi göstəricilər və digər məlumatları əks etdirir. Bundan əlavə, sistem torpaqların kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişiklikləri müəyyən etməyə, torpaqlardan məqsədli təyinatına və hüquqi rejiminə uyğun istifadə və onların mühafizəsinə nəzarət etməyə imkan verir, torpaqların münbitliyinin bərpası və artırılması istiqamətində səmərəli tədbirlərin görülməsinə, torpaq ehtiyatlarının kəmiyyət göstəricilərini müəyyənləşdirməyə, torpaq balansını tərtib etməyə zəmin yaradır.



2019-cu ilin sonuna ölkənin 3 milyon 200 min hektar ərazisində dəqiq torpaq uçotu işləri aparılacaqdır

Bu işlər nəticəsində torpaq ehtiyatlarının idarə edilməsinin, əmlak münasibətlərinin tənzimlənməsinin dövlət mexanizmi təkmilləşəcək, torpaqların sənəd göstəriciləri ilə faktiki yerləşmə vəziyyətinə dair göstəriciləri arasındakı uyğunsuzluqlar aradan qaldırılacaq. Əmlak üzərində hüquqların dövlət qeydiyyatı daha da sadələşəcək. «Plan-ölçü» sənədinin verilməsi elektron xidmətlər sırasına daxil ediləcək. Torpaqla bağlı stimullaşdırıcı tədbirlər, subsidiyaların, güzəştli kreditlərin verilməsi qeyd olunan sistem məlumatları əsasında aparılacaq. Sahibkarlara, torpaq mülkiyyətçilərinə və istifadəçilərinə dövlət dəstəyinin daha operativ həyata keçirilməsi üçün imkanlar yaranacaqdır.

**A. YUSİFQIZI**

# Sahibkarlıq fəaliyyəti üçün qeydiyyatdan keçmək ilkin şərtdir

Vergi ödəyicilərinin qeydiyyatı prosedurlarının maksimum sadələşdirilməsinə və fiziki şəxslərin cəmi bir neçə dəqiqə ərzində elektron qaydada uçota alınmasına imkan verən elektron qeydiyyatın tətbiqinə baxmayaraq, daxil olan məlumatlar göstərir ki, hələ də vergi orqanlarında uçota alınmadan və (və ya) təsərrüfat subyektini qeydiyyatdan keçirmədən fəaliyyət göstərən şəxslər mövcuddur. Bunun qarşısının alınması üçün həmin şəxslərin ünvanlı xidmət qaydasında vergi uçotuna alınması tədbirlərinə başlanılmışdır. Bu sahədə aparılan işlər uçota alınmadan fəaliyyət göstərən şəxslərə cərimə və sanksiyalar tətbiq edilmədən, müvafiq izahatlar verilməklə vergi ödəyicisinin və onun təsərrüfat subyektinin vergi uçotuna alınması prosesini əhatə edir.

Tapşırığın icrası ilə əlaqədar Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti, Ərazi vergilər departamentləri və idarələri tərəfindən ümumilikdə 109 vergi orqanı əməkdaşından ibarət 27 qrup yaradılmış və hər bir qrupa vergi ödəyicilərinə xidmət sahəsində istifadə olunan xüsusi nəqliyyat vasitələri təhkim edilmişdir. Qruplara Vergi ödəyicilərinə xidmət şöbəsinin və Uçot məlumat bazalarının aktuallığının təmini bölməsinin əməkdaşları ilə yanaşı, digər şöbələrdən də əməkdaşlar cəlb olunmuşdur.

Qruplar tərəfindən bu ilin aprel ayı ərzində həyata keçirilən tədbirlər nəticəsində uçotsuz fəaliyyət göstərən 1481 şəxs və ya təsərrüfat subyekti bu qaydada uçota alınmışdır: 287 halda şəxsin həm özünün, həm də təsərrüfat subyektinin uçota alınması, 400 halda vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti göstərən şəxsin uçota alınması, 794 halda isə vergi orqanında uçota alınmış (VÖEN-i olan) vergi ödəyicisinin təsərrüfat subyektinin uçota alınması təmin edilmişdir.

Ünvanlı xidmət göstərilməklə vergi uçotuna alınma tədbirlərinin davam etdirilməsi nəzərdə tutulmuşdur.




## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanda istehlakçıların hüquqlarının qorunması məqsədilə ictimai nəzarət mexanizmləri yaradılır.

Yaxın vaxtlarda Azərbaycanın gömrük-keçid məntəqələrində "yaşıl dəhliz"in fəaliyyətinə start veriləcək.

Azərbaycan İranla sərhəddə olan bir sıra gömrük-keçid məntəqələrinin fəaliyyətini bərpa etmək niyyətindədir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən torpaqların istifadəsi və mühafizəsinə nəzarət üzrə Bakı və regionlarda torpaq monitorinqlərinin keçirilməsinə başlanılıb.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin bir sıra müəssisələri özəlləşdiriləcək.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi yaxın zamanlarda 6 gəmini Xəzərdən kənarda istismara verməyi planlaşdırır.

Almaniyanın Boxum Rur Universitetinin nümayəndələri Azərbaycanın enerji siyasəti ilə maraqlanırlar.

# Lisenziyalar və icazələr haqqında yeni qanun

Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin (maliyyə bazarları istisna edilməklə) həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, «Lisenziyalar və icazələr haqqında» Qanuna icazələr siyahısının daxil edilməsi bu sahədə vahid yanaşmanı təmin edəcək. Onun sözlərinə görə, icazə və lisenziya arasında olan fərqlərdən biri budur ki, lisenziya müddətsiz və müəyyən fəaliyyət növü üçün verilir.

S.Məmmədov əlavə edib ki, Azərbaycanda lisenziyalaşdırma sahəsində 2002-ci ildə təsdiq edilmiş vahid siyahı qüvvədədir. Onun sözlərinə görə, «Lisenziyalar və icazələr haqqında» yeni qanun layihəsinə daxil edilmiş icazələr siyahısı əvvəlkindən xeyli qısadır: «İlkin olaraq, təqribən 400 fəaliyyət növündən ibarət olan və onlar üzrə icazələrin verildiyi bu siyahı xeyli azaldılıb və hazırda cəmi 199 icazə növündən təşkil edilib».

Yeni qanun lisenziyaların verilməsini 15 gündən 10 günə, icazələrin isə 7 günədək azaldılmasını, elektron lisenziyaların verilməsini, bu sahədə «vahid pəncərə» sisteminin tətbiqini də nəzərdə tutur, dövlət orqanlarını lisenziyaların alınması ilə bağlı sahibkarlara beş gün ərzində metodik yardım göstərməyə təhkim edir.

Qeyd edək ki, müddətsiz lisenziyalar 37 sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün verilir.

**FƏXRİYYƏ**

# Sənayenin dayanıqlı inkişafına BMT tərəfindən dəstək göstərilir

İqtisadiyyat Nazirliyinin və BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) birgə təşkilatçılığı ilə «Yeni «İpək yolu» regionunda inklüziv və dayanıqlı sənaye inkişafının gücləndirilməsi: sənaye parklarının, zonalarının və şəhərlərinin potensialından istifadə» layihəsinin ilk iclası keçirilib. Tədbirdə layihənin əhatə etdiyi ölkələrin, beynəlxalq qurumların, Azərbaycanda akkreditə olunmuş səfirliklərin, elm, təhsil müəssisələrinin və özəl sektorun nümayəndələri iştirak ediblər.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın tarixi «İpək yolu»nun vacib hissəsini təşkil etdiyini, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında mühüm tərəfdaş kimi böyük tranzit potensialına malik olduğunu diqqətə çatdırıb: «Azərbaycan beynəlxalq və regional əhəmiyyətli təşəbbüslərdə fəal iştirak edir. Ölkəmiz UNIDO tərəfindən həyata keçirilən bu layihənin də reallaşdırılmasında, sənaye parkları və zonaları sahəsində əməkdaşlığın genişləndirilməsində mühüm rola malikdir». Nazir müavini ölkəmizdə sənayenin inkişafı sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verib, sənaye parkları, sənaye zonaları və məhəllələrinin təşkili istiqamətdə görülən işlərdən danışıb. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının «Böyük İpək yolu» dəhlizinin funksionallığının artırılması istiqamətində son dövrlər atılan mühüm addımlardan olduğu vurğulanıb və Azərbaycan ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, əlavə tranzit yüklərin cəlb edilməsi, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi, yüklərin çatdırılma müddətinin və xərclərinin azaldılması məqsədilə görülmüş işlər diqqətə çatdırılıb.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev çıxışında bildirib ki, indiyədək ölkəmizdə BMT qurumları ilə ümumi dəyəri 96,6 mln. dollar olan 50-yə yaxın layihə icra edilib. Hazırda ümumi dəyəri təxminən 18,9 mln. dollar olan 10 layihənin icrası davam etdirilir.

UNIDO-nun nümayəndəsi Olqa Memedoviç təmsil etdiyi qurumun bundan sonra da Azərbaycanda sənayenin inkişafına, xüsusilə iqtisadiyyatın diversifikasiyasına yönəldilmiş tədbirlərə dəstək göstərəcəyini vurğulayıb.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Nəriman Mannapbekov «Yeni «İpək yolu» iqtisadi qurşağı, dəniz üzərindən «İpək yolu» konsepsiyası», UNIDO-nun ÇXR-dəki nümayəndəsi Ralf Bredel «Əhatəli və davamlı sənaye inkişafının təmin edilməsində sənaye klasterlərinin, parklarının, zonalarının və digər coğrafi vahidlərin rolu», CAREC İnstitutunun direktoru Kubat Umurzakov «CAREC proqramının əməliyyat prioritetləri kimi nəqliyyat, logistika və sənaye dəhlizlərinin rolu» mövzusunda məruzələrlə çıxış ediblər.

İştirakçı ölkələrin təqdimatlarına və «Sənaye parkları, zonaları və şəhərlərinin yaradılması və idarə edilməsində ən yaxşı təcrübə» mövzusuna həsr olunmuş sessiyalarda Qırğızıstanın iqtisadiyyat nazirinin müavini Almaz Sazbakov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Məmmədov, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev, UNIDO-nun Tacikistan, Türkmənistan və Qırğızıstan üzrə ekspertləri milli sənayenin inkişaf strategiyası, sənaye parkları, zonaları mövzusunda təqdimatlarla çıxış ediblər.

Tədbir iştirakçıları «Təmiz şəhər» ASC-də və bərk məişət tullantılarının yandırılması və çeşidlənməsi zavodlarında olublar.



**Fəxriyyə İKRAMQIZI**

# Ünvanlı sosial yardım sahəsində qaydalar təkmilləşdirilib

*Məlumatlarda uyğunsuzluq, yaxud gizlədilməsi halı aşkar edilərsə, ünvanlı sosial yardımın təyin olunmasından imtina edilir*

Dövlət sosial yardımı üzrə vahid elektron müraciət və təyinat altsistemi (VEMTAS) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu il fevralın 19-dan tətbiq olunmağa başlanıb. Bu sistem ünvanlı sosial yardım üçün müraciət olunması və müraciətlər üzrə ailələrin yardım almaq hüququna baxılaraq qərar qəbul edilməsi prosesinin avtomatlaşdırılmış rejimdə, şəffaf şəkildə həyata keçirilməsini təmin edir. Başqa sözlə desək, VEMTAS ünvanlı sosial yardımların təyinatı prosesinin məmur müdaxiləsi mümkün olmadan tam şəffaf və obyektiv əsaslarla aparılmasını, sosial yardımların ünvanlılıq prinsipi əsasında çatdırılmasını təmin edir.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, mayın 4-dək «Elektron hökumət» portalındakı «Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi» elektron xidməti vasitəsilə ailələri təmsil edən şəxslər tərəfindən doldurularaq təqdim olunmuş 83.182 ərizə-bəyannamə VEMTAS-da təsdiq edilib. Həmin ərizə-bəyannamələrdən 72.276-sı (86,9%) təmsilçilər tərəfindən təsdiqlənib ki, onlardan da 60.106-sı (83,2%) sistemdə emal olunub. Emal edilmiş ərizə-bəyannamələrdən 55.234-də (91,9%) bəyan olunmuş məlumatların aidiyyəti qurumların informasiya sistemlərindən alınmış məlumatlar əsasında yoxlanılarkən öz təsdiqini tapmadığı, məlumatların gizlədilməsi halı və digər uyğunsuzluqlar müəyyən edilib və həmin ailələrə sosial yardımın təyin olunmasından imtina edilib.

Emal prosesi aparılmış ərizə-bəyannamələrdən 68 rayon və şəhər üzrə 20.244 nəfər ailə üzvünü əhatə edən 4872 ailəyə VEMTAS tərəfindən ünvanlı sosial yardım təyinatı aparılıb. Yardımların orta aylıq məbləği 154,09 manat olub. Sistemdə təyinatı aparılmış ünvanlı sosial yardımları üzrə ən yüksək aylıq məbləğ isə 510,09 manat səviyyəsində qeydə alınıb.

Ünvanlı sosial yardımın təyin olunması barədə qərar çıxarıldığı hallarda yardımın məbləği və təyin edilmə müddəti, onun əldə olunması üçün plastik kartın hansı bankdan alınacağı barədə vətəndaşa ərizə-bəyannamədə qeyd etdiyi əks-əlaqə vasitələrinin birinə elektron formada məlumat göndərilir. Yardımın təyin olunmasından imtina edildiyi barədə qərar çıxarıldığı hallarda da eyni qaydada məlumat göndərilərək imtinanın səbəbləri vətəndaşın diqqətinə çatdırılır. Bundan əlavə, vətəndaşların həmin məlumatları almaq imkanlarının daha da sadələşdirilməsi üçün onlara sosial yardımın təyin olunması və ya imtina edilməsi barədə məlumatları sadəcə telefon vasitəsilə nazirliyin mərkəzləşdirilmiş informasiya sistemindən birbaşa əldə etmək imkanı da yaradılıb. Belə ki, təmsil etdikləri ailələrə ünvanlı dövlət sosial yardımının alınması üçün «Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi» elektron xidməti vasitəsilə müraciət edən vətəndaş «142-Çağrı mərkəzi»nə zəng edərək interaktiv rejimdə nazirliyin informasiya sistemindən müraciətinin cari vəziyyəti barəsində məlumatı əldə etmək üçün 0 düyməsini seçir. Bundan sonra 2 düyməsini yığaraq təmsilçinin şəxsiyyət vəsiqəsinin nömrəsini və sosial yardımın alınması üçün ailəni təmsil etməsi barədə notarial qaydada təsdiq edilmiş ərizənin nömrəsinin sonuncu 4 rəqəmini daxil edir. Daxil edilən rəqəmlər sistem tərəfindən avtomatik qaydada yoxlanılaraq düzgünlüyü təsdiqləndikdən sonra sosial yardım üçün edilmiş müraciətə VEMTAS-da baxılmasının nəticəsi olaraq qəbul edilmiş qərar barədə məlumat səslənir. Vətəndaşın ailəsinə ünvanlı sosial yardım təyin olunubsa, yardımın məbləği və təyin edilmə müddəti, onun əldə edilməsi üçün plastik kartın hansı bankdan hansı tarixdən sonra alınacağı barədə məlumat verilir. Sosial yardım təyin olunmasından imtina edildiyi barədə qərar çıxarıldığı halda isə yardım təyinatından imtina edildiyi barədə məlumat vətəndaşın diqqətinə çatdırılır.

Nazirlikdən bildirilib ki, ailələri təmsil edən şəxslər sosial yardımın təyin olunması üçün müraciət etdikləri zaman avtomatlaşdırılmış sistemdəki ərizə-bəyannamədə ailə üzvləri, gəlirləri və əmlakı barədə yalnız düzgün məlumatları təqdim etməlidirlər. Çünki VEMTAS 20-dən çox dövlət orqanının və təşkilatın informasiya ehtiyatlarına inteqrasiya şəraitində fəaliyyət göstərir. Vətəndaşlar tərəfindən daxil edilən bütün məlumatlar aidiyyəti qurumların informasiya bazalarındakı rəsmi məlumatlar əsasında yoxlanılır, uyğunsuzluq, yaxud məlumatların gizlədilməsi halı aşkar edildikdə isə yardımın təyin olunmasından imtina edilir.

**AYTƏN**





Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Köhnə (ənənəvi) ikirəqəmli hesablar planının tətbiqi ləğv edilib

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Q-03 nömrəli 03 fevral 2016-cı il tarixli Qərarı ilə təsdiq olunmuş yeni «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» köhnə (ənənəvi) hesablar planının tətbiqini praktik olaraq ləğv etdi. Yeni Qaydaların təsdiqi ilə əlaqədar ləğv edilmiş əvvəlki «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda (Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 13 yanvar 2009-cu il, Əmr İ-06) köhnə (ənənəvi) hesablar planının demək olar ki, tam oxşarı olan ikirəqəmli «Müəssisələrin mühasibat uçotunun hesablar planı»ndan istifadə olunması nəzərdə tutulmuşdu.

Əvvəlki qaydalara görə, kiçik sahibkarlıq subyektləri iki hissəyə bölünmüşdü. Bunlardan biri sadələşdirilmiş vergi ödəyicisi olan, digəri isə sadələşdirilmiş vergi ödəyicisi olmayan kiçik sahibkarlıq subyektləri kimi nəzərdə tutulmuşdu. Sadələşdirilmiş vergi ödəyicisi olan kiçik sahibkarlıq subyektləri öz fəaliyyətlərinin uçotunu «Kiçik sahibkarlıq subyektlərinin təsərrüfat əməliyyatlarının uçotu kitabı»nda aparması (yəni hər hansı hesablar planını tətbiq etmədən həyata keçirmək), sadələşdirilmiş vergi ödəyicisi olmayan kiçik sahibkarlıq subyektləri isə mühasibat uçotunu həmin Qaydalarla müəyyən edilmiş «Müəssisələrin mühasibat uçotunun hesablar planı»na uyğun aparması nəzərdə tutulmuşdu. Yəni əvvəlki Qaydalara görə, kiçik sahibkarlıq subyektləri kateqoriyasına aid edilən elə şəxslər ola bilərdi ki, sadələşdirilmiş vergitutma sistemini tətbiq etməkdən imtina etsin və ya onların sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ yaranmasın, belə halda həmin şəxslər əvvəlki Qaydalarda göstərilən ikirəqəmli hesablar planından istifadə etməli idilər.

Yeni Qaydalarda isə «kiçik sahibkarlıq subyektləri» anlayışı Vergi Məcəlləsindəki «sadələşdirilmiş vergi ödəyiciləri» anlayışı ilə əlaqələndirilməyib və Qaydalarda nəzərdə tutulan tələblər demək olar ki, kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tələblərinə uyğunlaşdırılmış formadadır. Lakin maliyyə informasiyalarının əks etdirilməsi baxımından yeni Qaydalarda tərtib olunması nəzərdə tutulan mühasibat registrlərindəki məlumatlar əsasında sadələşdirilmiş vergi bəyannaməsinin və ya mənfəət vergisi bəyannaməsinin 1№-li Əlavəsinin tərtib olunması tam asanlaşacaqdır.

Əsas yenilik ondan ibarətdir ki, yeni Qaydalarda ümumiyyətlə hər hansı hesablar planının mütləq tətbiq olunması nəzərdə tutulmur. Kiçik sahibkarlıq subyekti tərəfindən, sadəcə olaraq, 3 formada mühasibat uçotu registrlərinin, yəni «Kiçik sahibkarlıq subyektlərinin aktivlərinin hərəkəti üzrə cədvəl»in, «Kiçik sahibkarlıq subyektlərinin öhdəliklərinin hərəkəti üzrə cədvəl»in və «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması kitabı»nın tərtib olunması kifayət edir. Həmçinin, əvvəlki Qaydalar kiçik sahibkarlıq subyektləri tərəfindən «Müəssisə balansı (əlavə 1)», «Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat (əlavə 2)» və «Müəssisə balansına əlavə (əlavə 3)» kimi maliyyə hesabatlarının tərtib edilməsini nəzərdə tutmasına baxmayaraq, yeni Qaydalarda hər hansı xüsusi formalı maliyyə hesabatlarının tərtib olunması nəzərdə tutulmayıb. Yəni mühasibat uçotunda həmin maliyyə hesabatları formalarının da tərtib olunmasına son qoyuldu. Digər bir maraqlı məqam ondan ibarətdir ki, yeni Qaydaların tətbiqi ikirəqəmli hesablar planı əsasında uçot aparılması nəzərdə tutulan 1C mühasibat proqramından istifadəni əhəmiyyətsiz edir.

Belə nəticəyə gəlmək olar ki, yeni Qaydalar mühasiblərin birmənalı olaraq köhnə hesablar planının tətbiqindən imtina etməsinə gətirib çıxaracaqdır. Araşdırmalar da onu göstərirdi ki, köhnə hesablar planının strukturu və maliyyə elementlərinin bölgü mexanizmi (quruluşu və ya forması) beynəlxalq standartlarda qəbul edilən maliyyə anlayışlarını dərk etməkdə çətinliklər törədirdi. Aktivlərin, öhdəliklərin, kapital, gəlir və xərc elementlərinin köhnə hesablar planında qarışıq və tam nizamlanmamış vəziyyətdə yerləşdirilməsi həmin hesablar planının əhəmiyyətsiz olduğunu bir daha sübut etdi.

Sual oluna bilər ki, ikirəqəmli köhnə hesablar planının tətbiqi yolu ilə mühasibat uçotu aparılan təsərrüfat subyektləri qanun (qayda) pozuntusuna yol vermiş şəxs hesab edilə bilərlərmi? Bunun üçün qüvvədə olan yeni İnzibati Xətalar Məcəlləsinə istinad etmək lazımdır. Məcəllənin 462-ci maddəsində göstərilir ki, mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və sığorta nəzarəti orqanına təqdim edilməli olan digər hesabat və məlumatların qanunvericiliyə müvafiq hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanunvericiliyə əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmasına görə - vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. Əgər kiçik sahibkarlıq subyektindən yeni Qaydalarda nəzərdə tutulan 3 formanın, yəni 2 cədvəl və 1 kitabın tərtib olunması tələb və ya bundan imtina etdiyi halda maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib etmək tələbi olduğu halda, maliyyə informasiyalarının ikirəqəmli hesablar planı əsasında tətbiq olunan formalarda əks etdirilməsi qanunla düzgün hesab edilməməlidir. Bu baxımdan, ikirəqəmli hesablar planını tətbiq edən kiçik sahibkar və ya hər hansı istənilən təsərrüfat subyekti inzibati məsuliyyətə cəlb oluna bilər.

Yeni Qaydaların tətbiqi sovet dövründən qalan köhnə (ənənəvi) mühasibat uçotunun aparılması vərdişlərinə tamamilə son qoyacaq və müəssisələrdə mühasibat uçotunun beynəlxalq səviyyədə qəbul edilən standartlarının tələblərinə əməl olunması səviyyəsini artıracaqdır.

# Sadələşdirilmiş mühasibat uçotunun aparılması qaydaları

Azərbaycanda təsdiq edilmiş yeni meyarlara görə, kiçik sahibkarlıq subyektlərinə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, eləcə də satışdankənar gəlirləri 120 min manatadək və işçilərin sayı 25 nəfərədək olan sahibkarlıq fəaliyyəti göstərən şəxslər aid edilir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-03 nömrəli 03.02.2016-cı il tarixli qərarı ilə «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» təsdiq edilmişdir. Qaydalar Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Sadələşdirilmiş uçot Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş «İri, orta və kiçik sahibkar meyarları»na əsasən kiçik sahibkarlıq subyektləri hesab olunan fiziki və hüquqi şəxslər tərəfindən aparılır. Kiçik sahibkarlıq subyektləri «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nın 1.3-cü və 1.4-cü bəndlərinə uyğun olaraq sadələşdirilmiş uçotun aparılmasını təmin edirlər və maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib etmək hüququna malikdirlər.

Təsdiq edilmiş meyarlara görə, kiçik sahibkarlıq subyektlərinə hesabat ili ərzində təqdim olunmuş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, eləcə də satışdankənar gəlirləri 120 min manatadək və işçilərin sayı 25 nəfərədək olan sahibkarlıq fəaliyyəti göstərən şəxslər aid edilir. Sahibkarların kiçik, orta və iri sahibkar kimi müəyyənləşdirilməsi üçün «İşçilərin orta siyahı sayı» və «İllik gəlir» meyarı göstəricilərindən daha yüksək olanı əsas götürülür. Yeni yaradılan sahibkarlıq subyektlərinin kateqoriyasının müəyyənləşdirilməsində isə onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 il müddətində müəyyən edilmiş işçilərin say göstəricisi əsas götürülür. «Uçot kitabı» əsasında hesabat dövründə kiçik sahibkarlıq subyektlərinin əmlakının və pul vəsaitlərinin, onlar tərəfindən görülmüş iş və göstərilən xidmətlərin, həmçinin görülmüş iş və göstərilən xidmətlərlə bağlı xərclərin mövcudluğu müəyyənləşdirilir və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin qərarı ilə təsdiq olunmuş «Kiçik sahibkarlıq subyektlərinin maliyyə vəziyyəti barədə hesabat»ı tərtib edilir.

Kiçik sahibkarlıq subyekti fəaliyyətini 2 nəfərdən artıq olmamaqla fərdi olaraq və ya muzdlu işçi cəlb etməklə həyata keçirdikdə, bu subyekt tərəfindən «Uçot kitabı»nın yalnız «A. Gəlirlər» və «B. Xərclər» bölmələri doldurulur və müvafiq olaraq bu Qaydaların 3.1-ci bəndində göstərilən hesabat forması tərtib edilmir. «Uçot kitabı» kiçik sahibkarlıq subyektlərinin hesabat dövrünün əvvəlinə mövcud olan əmlakın, öhdəliklərin və başqa vəsaitlərin qalıqları üzrə məbləğlərin yazılışı ilə aparılır. «Əməliyyatların məzmunu» qrafasında hesabat dövründə baş vermiş təsərrüfat əməliyyatları xronoloji ardıcıllıqla qeydə alınır. «Uçot kitabı»nın üz qabığında kiçik sahibkarlıq subyektləri, hüquqi şəxs olduqda özlərinin tam adlarını, hüquqi ünvanlarını, VÖEN-lərini, fərdi sahibkar (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs) olduqda isə soyadlarını, adlarını, atalarının adlarını, ünvanlarını və VÖEN-lərini, habelə məşğul olduqları fəaliyyət növlərini, banklarda açılmış hesablaşma və ya digər hesablarının nömrələrini, bu bankların adlarını göstərirlər. «Uçot kitabı»nın üz səhifəsini kiçik sahibkarlıq subyektinin qeydiyyatda olduğu müvafiq vergi orqanının vəzifəli şəxsi soyadını, adını, atasının adını, vəzifəsini və rütbəsini göstərməklə imzalayır və imza etdiyi tarixi qeyd edir.

Kiçik sahibkarlıq subyektləri tərəfindən hesabat dövrü (ay, rüb, il) ərzində məhsul, iş və xidmətlərin satışından əldə edilən gəlirlərə, bu məhsul, iş və xidmətlərin istehsalına çəkilən xərclərə, satışdankənar əməliyyatlar üzrə daxilolmalara, göstərilən fəaliyyətlə əlaqədar qazanılan mənfəətin istifadəsinə və bu subyektlərin əmlakının hərəkətinə dair məlumatlar müvafiq olaraq «Uçot kitabı»nın «A. Gəlirlər», «B. Xərclər», «C. Satışdankənar əməliyyatlar üzrə daxilolmalar», «Ç. Mənfəətin istifadəsi'», «D. Əmlakın hərəkəti» cədvəllərində əks etdirilir. «Uçot kitabı»nın «A. Gəlirlər», «B. Xərclər», «C. Satışdankənar əməliyyatlar üzrə daxilolmalar», «Ç. Mənfəətin istifadəsi», «D. Əmlakın hərəkəti» cədvəllərində eyni rekvizitlər olan «Ayın günləri», «İlkin sənədin №-si» və «Əməliyyatın məzmunu» rekvizitlərində müvafiq olaraq kiçik sahibkar tərəfindən təsərrüfat faktının hansı tarixdə baş verməsi, bu faktın rəsmiləşdirildiyi ilkin sənədin nömrəsi və həmin faktın məzmunu qeyd olunur.

Kiçik sahibkarlıq subyektinin həyata keçirdiyi təsərrüfat faktı üzrə əldə etdiyi gəlirlərə və çəkdiyi xərclərə dair hesablanmış və ödənilmiş məbləğlər arasında əmələ gəlmiş fərq «Uçot kitabı»nın «A. Gəlirlər» və «B. Xərclər» cədvəllərinin «Əməliyyatlar üzrə qalıq» sütununda qeyd olunur. Kiçik sahibkarlıq subyektinin satışdankənar əməliyyatları üzrə daxilolmaları və həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi mənfəətdən istifadəyə dair xərclərinin miqdarı, onların nağd və ya nağdsız yolla baş verməsindən asılı olaraq, «Uçot kitabı»nın «C. Satışdankənar əməliyyatlar üzrə daxilolmalar» və «Ç. Mənfəətin istifadəsi» cədvəllərinin müvafiq olaraq «Nağd hesablaşmalar vasitəsi ilə» və «Nağdsız hesablaşmalar vasitəsi ilə» adlanan sütunlarında qeyd olunur. Kiçik sahibkarlıq subyekti əmlakın hərəkətinə dair alınması (mədaxil edilməsi), satışı, əvəzsiz və ya borc məqsədi ilə verilməsi, həmin əmlakın silinməsi, ləğv edilməsi (məxaric edilməsi) barədə məlumatları «Kiçik sahibkarlıq subyektlərinin təsərrüfat əməliyyatlarının uçotu kitabı»nın «D. Əmlakın hərəkəti» cədvəlinin müvafiq sütunlarında qeyd olunur.

Kiçik sahibkarlıq subyektinin rəhbəri «Kiçik sahibkarlıq subyektlərinin təsərrüfat əməliyyatlarının uçotu kitabında əks etdirdiyi məlumatların dürüstlüyünü hüquqi şəxs olduqda imzası və möhürü ilə, fiziki şəxs olduqda isə yalnız imzası ilə təsdiq edir.

Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən, sadələşdirilmiş verginin ödəyiciləri olan kiçik sahibkarlıq subyektləri uçotu «Uçot kitabı»na uyğun aparmaqla bu Qaydaların 3.1-ci bəndində qeyd olunan hesabatı hesabat dövründən sonrakı mart ayının 15-dək Azərbaycan Respublikasının statistika və vergi orqanlarına təqdim edirlər.

Qeyd olunanlar nəzərə alınaraq, Vergilər Nazirliyi işçilərin sayı və ya illik gəlirin məbləği yuxarıda göstərilən meyarlara uyğun olduğu halda, mühasibat uçotunun Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına və ya «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»na əsasən aparılmasını tövsiyə edir.

# «Yaşıl kart» populyarlaşır

«Yaşıl kart» üzv ölkələr arasında avtonəqliyyat vasitələri sahiblərinin məsuliyyət sığortası üzrə beynəlxalq sığorta sazişidir. Bu sistem müştərilər üçün sərfəlidir, lakin sığorta şirkətləri haqda heç də həmişə bunu demək olmur. Bəzi ölkələrdə zərər limiti müəyyən edilmədiyinə görə, digər ölkələrin sığortaçıları böyük kompensasiyalar ödəməli olurlar. Sistemə qoşulan ölkələrdə müxtəlif zərər limitləri müəyyənləşdirilib, bəzi ölkələrdə isə ümumiyyətlə limit yoxdur.

«Yaşıl kart» sisteminin Cənub-Şərq qrupuna 12 ölkə daxildir. Bunlar Albaniya, Bosniya və Hersoqovina, Bolqarıstan, Kipr, Makedoniya, Yunanıstan, İran, İsrail, Moldova, Rumıniya, Serbiya və Türkiyədir. Bu ilin əvvəlindən Azərbaycan da bu qrupa daxil olub. «İcbari sığortalar haqqında» Qanuna edilən dəyişikliyə görə, ölkəmizdə maşın sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə standart sığorta müqaviləsi çərçivəsində öhdəliklərin yerinə yetirilməsinə nəzarət Daxili İşlər Nazirliyi tərəfindən, sərhəd sığorta müqaviləsi və «Yaşıl kart» sistemi isə Dövlət Gömrük Komitəsi çərçivəsində həyata keçirilir. Qanuna əsasən, artıq xarici ölkələrdə qəza törədən sürücülərin də mülki məsuliyyəti sığortalanır. Sistemin fəaliyyəti üçün Azərbaycanda «Yaşıl kart» Bürosu təsis edilib. Büronun funksiyalarını İcbari Sığorta Bürosu (İSB) həyata keçirir. Bu blankı alan müştəri xarici ölkədə qəza törədərsə və hər hansı bir şəxsin sağlamlığına, həyatına və əmlakına zərər vurarsa, bu zərər həmin ölkənin «Yaşıl kart» Bürosu tərəfindən ödənilir.

Artıq beynəlxalq sığortanın bu növü ölkəmizdə də populyarlaşır. Ötən ay xaricə öz maşını ilə gedənlər mart ayı ilə müqayisədə 19,4 % çox - 387 «Yaşıl kart» alıblar. Mart ayında 324 avtomobil «Yaşıl kart» üzrə sığortalanmışdı. Ən aşağı sığorta haqqı 15 manat, ən yüksək sığorta haqqı 1200 manat təşkil edib.

**F.İKRAMQIZI**

## vergi təqvimi

MAY

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

***Qeyd:*** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
16 may - «(5)» və «6».
20 may - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«(1-2)» - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır.
Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrinin həyata keçirilər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına təqdim edirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«(9-1)» - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və həmin ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram



# Çində vergi islahatı

Çin Xalq Respublikasında müəssisələr üçün mənfəət vergisi artıq tamamilə əlavə dəyər vergisi (ƏDV) ilə əvəz edilmişdir. Mayın 1-dən ƏDV tikinti, daşınmaz əmlak, maliyyə-pul və istehlak xidmətləri sahəsində dörd vergi növünü əvəz edir. Yerli medianın yaydığı xəbərlərə görə, hökumətin qərarına əsasən, mayın 1-dən artıq bütün ölkə ərazisində fəaliyyət göstərən müəssisələr ƏDV ödəməlidirlər.

Baş nazir Li Kets Yanın bəyan etdiyi kimi, müəssisələrin gəlir vergisinin əvəzinə ölkənin hər yerində ƏDV tətbiq olunması biznesin üzərindəki yükü 500 milyard yuan (76,92 milyard dollar) həcmində azaldacaq.

Mənfəət vergisinin ƏDV ilə əvəz olunması hökumətin iqtisadiyyatın müxtəlif sektorlarını tarazlaşdırmaq üçün vəd etdiyi addımlardandır. Buna qədər - 2012-ci ildə ƏDV-yə keçid sxemi pilot layihə kimi sınaqdan keçirilmişdi. O vaxt dəyişiklik nəqliyyat, logistika və informasiya texnologiyaları sektorlarında tətbiq olunmuşdu. Bu ilin ilk yarısına qədər həmin pilot sxem Çindəki biznesə 75 milyard dollar vəsaiti özündə saxlamağa imkan yaratmışdır.

# Vergi fırıldaqçılığının «çirkli onluğu» 2016

Amerika Birləşmiş Ştatlarının vergi xidməti IRS (Internal Revenue Service) ölkədə ən çox yayılmış vergi fırıldaqçılığı barədə hər il açıqlama verir. Başlıca məqsəd vətəndaşları vergi bəyannamələrini təqdim edərkən hansı məsələlərə ehtiyatla yanaşmaq barədə məlumatlandırmaqdır. Beləliklə, ABŞ-da daha çox ehtiyat edilən vergi fırıldaqları:

♦ Fərdi məlumatların oğurlanması. Fırıldaqçılığın əsas və geniş yayılmış növü hesab edilir. Sahibinin xəbəri olmadan özgəsinin fərdi məlumatlarından istifadə etməklə vergi bəyannaməsinin verilməsi nəzərdə tutulur. Bu məsələdə ən həssas nöqtələrdən biri Social Security (sosial təhlükəsizlik) nömrəsidir. Vergi ödəyicisindən onu daha təhlükəsiz şəraitdə gizli saxlaması tələb olunur, bu nömrəni başqasına telefonla və ya elektron poçtla göndərmək məsləhət görülmür. IRS xəbərdarlıq edib ki, 2016-cı il boyunca fırıldağın bu növünü daha ciddi nəzarətdə saxlamaq lazım gələcək.

♦ Fişinq - cinayətkar təşkilatın vergi ödəyicisinə aid fərdi məlumatları elektron poçt vasitəsilə əldə etmək məqsədilə qanun donuna bürünməsidir. Nəzərə almaq lazımdır ki, Amerikada vergi orqanı vergi ödəyicisinin ünvanına birbaşa məktub göndərmir.

♦ Telefon fırıldaqçılığı hələ də «çiçəklənən» köhnə dələduzluqdur. IRS son illərdə bu işlə məşğul olan dələduzların fəallaşdıqlarını bildirib.

♦ Bəyannamə doldurmaq fırıldağı. Dələduzlar saxta bəyannamələr hazırlamaq şirnikdirməsi ilə özlərini həqiqi vergi müfəttişləri kimi təqdim edirlər. Bu cür insanlar və ya şirkətlər, adətən, ildə bir dəfə - vergi bəyannamələrinin təqdim olunmasının qaynar çağında meydana çıxırlar.

♦ Şirkəti xarici ölkələrdə qeydiyyata aldırmaqla vergi qaçaqlığı.

♦ Verginin qaytarılması ilə bağlı şişirdilmiş qiymətləndirmə aparılması. Vergi fırıldaqçılığının bu növü ilə öz vəsaitlərinə qənaət etmək üçün verginin qaytarılması ilə bağlı ərizələrini bilərəkdən saxtalaşdıran sahibkarlar məşğul olurlar.

♦ «Xeyriyyə fondları». Həqiqətən də xeyriyyə fəaliyyətləri ilə məşğul olan vicdanlı şirkətlərlə yanaşı, insanların hisslərindən sui-istifadə edən işbazlar da var. IRS-in vətəndaşlara xəbərdarlığında qeyd edilib ki, əgər pul ianə etmək istəyirsinizsə, xeyriyyə işi ilə məşğul olan qurum haqqında daha dəqiq məlumatınız olmalıdır.

♦ Tutulan pulların və xərclərin məbləğinin şişirdilməsi.

♦ Biznes kreditlərinə tələbatın qəsdən artırılması.

♦ Vergi kreditləri ala bilmək məqsədilə gəlirlərin aşağı göstərilməsi.

# Avrozonada ÜDM artımı 1,6% olacaq

İqtisadi və maliyyə məsələləri üzrə Avropa komissarı Pyer Moskovisi Brüsseldə iştirak etdiyi mətbuat konfransında o qədər də nikbin olmayan proqnozla çıxış edib. Onun sözlərinə görə, Avropanı bürüyən mürəkkəb qlobal mühitə baxmayaraq, artım dayanmayacıq. Göstərilən siyasi səylər iş yerlərinin sayının tədricən artdığına və investisiyaların dəstəkləndiyinə işarə edir: «Bununla belə, qeyri-bərabərliyin aradan qaldırılması üçün hələ çox iş görülməlidir. Avro zonasında bərpa prosesi istər üzv dövlətlər arasında, istərsə də cəmiyyətdəki ən zəiflərlə ən güclülər arasında qeyri-bərabərliyini saxlayır. Bu, məqbul hal deyil və dövlətlər tərəfindən həm ayrı-ayrılıqda, həm də kollektiv şəkildə qəti addımlar atılmasını tələb edir».

Proqnozlara əsasən, Avropada iqtisadi artım əsas ticarət tərəfdaşlarının fəallığının zəifləməsi fonunda bir qədər ləngiyəcək. Yaz proqnozlarına görə, Avropa Komissiyası avro zonasında ümumi daxili məhsulda (ÜDM) 2016-cı il üzrə 1,6%, 2017-ci ildə isə 1,8% artım gözləyir. Xatırladaq ki, bu rəqəm 2015-ci ildə 1,7% olmuşdu. Avropa İttifaqına üzv dövlətləri ümumi götürdükdə, keçən il 2% olmuş ÜDM artımının 2016-cı il üçün 1,8%, 2017-ci il üçünsə 1,9% olacağı gözlənilir.

# Ərzaq embarqosu Rusiyada aqrar sektorun inkişafına kömək edib

Rusiya rublunun kursunun enməsi və xaricdən ərzaq məhsullarının gətirilməsinə embarqo qoyulması ölkədə daxili bazarın, xüsusilə də kənd təsərrüfatı sektorunun nəzərəçarpacaq artımı ilə nəticələnib. Hazırda Rusiyanın aqrar sənaye sektoru fəal investisiya qoyuluşu və inkişaf dövrünü yaşamaqdadır.

Ölkənin kənd təsərrüfatı sahəsində çalışan ən böyük maliyyə qurumlarından olan «Ros Aqro» şirkəti Rusiyanın beynəlxalq sanksiyalara və ərdılmasına yönəltməyi planlaşdırır. «Şirkət iri-həcmli investisiyalar qoyaraq, böyümək niyyətindədir», - maliyyə analitiki Svyatoslav Arsyonov demişdir. «Bloomerg» agentliyinin rəyinə görə, rublun devalvasiyası Rusiyada kənd təsərrüfatına marağı artırmış və sərmayə qoyuluşu üçün cəlbedici şərait yaratmışdır.

Baş nazir Dmitri Medvedev qeyd etmişdir ki, hökumət əvvəllər xaricdən gətirilməsi zəruri olan bir çox ərzaq məhsullarına tələbatın ödənilməsi üçün fermerləri dəstəkləməkdə davam edəcək. Bu sektorun inkişafı üçün dövlət artıq 3,4 milyard dollara yaxın sərmayə qoymuşdur. 2013-cü ildə Rusiya dünyadakı ərzaq məhsulları istehsalçıları arasında 9-cu yerdə idi. Son 2 il ərzində ölkə ərzaq məhsullarının idxalını 40 faiz azalda bilmişdir. 2015-ci ildə Rusiyaya gətirilən tərəvəzin dəyəri 1,5 milyard dollar olmuşdur.



zaq embarqosuna qarşı atdığı cavab addımı kimi, kənd təsərrüfatına 250 milyon dollar sərmayə qoymağı planlaşdırdığını bəyan etmişdir. Şirkətin səhmlərinin qiyməti London fond birjasında 2014-cü ilin avqustundan bəri üçqat artaraq, 16,12 dollara çatıb. Şirkət səhmləri London fond birjasında satıb əldə etdiyi gəlirləri Rusiyanın Uzaq Şərq regionunda iri heyvandarlıq komplekslərinin yara-

## Xəbər lenti

**BMT**-nin hesabatına əsasən, iri şirkətlər 2015-ci ildə pulları qeyri-rezidentlər üçün daha sərfəli vergi imkanları yaradan Avropa ölkələrinə yönəltməklə 221 milyard məbləğində vergi yayındırıblar. Bu ölkələrin siyahısında Lüksemburq və Niderland öndə gəlir.

**Qazaxıstan**ın Karaqanda vilayətinin vergi idarəsi Rusiyanın məşhur «Ruki verx!» musiqi qrupunun konsertinin təşkilatçılarının bu tədbirdən əldə etdikləri gəlirləri yoxlayır. Aprelin sonunda şəhərin ən böyük salonlarından olan boks mərkəzində keçirilmiş konsertin biletlərinin qiyməti 5500-8000 təngə (17-25 dollar) idi.

**Ukrayna** Ali Radasında pensiyaların vergiyə cəlb olunmasının ləğvi ilə bağlı iki qanun layihəsi qeydiyyata alınıb.

**Rusiya**nın Bryansk Dövlət Universitetinin tələbələri şəhər sakinlərinin diqqətini üzərində «Vergiləri ödə» yazılmış maykalar və hərəkətli rəqslərlə cəlb etməyə çalışıblar. Fləşmöb təşkil edən tələbələr gəlib-keçənlərə şirkətlərin verməli olduqları bəyannamələr, «Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti»nin göstərdiyi xidmətlər barədə vərəqələr, eləcə də «Mən öz şəhərimi sevirəm, ona görə də vergiləri ödəyirəm!» yazılmış salfetlər paylayıblar.

**Çexiya**nın vergi idarəsi bəyan edib ki, transfert qiymətqoyma ilə bağlı ötən il aparılmış yoxlama sayəsində büdcəyə əlavə 450 milyon kron (18,8 milyon dollar) vəsait yığılıb.

**Braziliya**nın paytaxtı Rio-de-Janeyro hökuməti kəskin büdcə kəsirinin şəhərdə məktəblərin və xəstəxanaların bağlanmasına, əməkhaqqı və pensiyaların gecikdirilməsinə səbəb olduğundan, il ərzində neft-qaz sektorundan vergi şəklində 522 milyon dollar vəsait yığmaq niyyətində olduğunu bildirib.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Səlcuqlar dövrünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 2.Gəmi və təyyarədə sükan; 3.Üz tərəfində burulmuş xovları olan üst paltarlıq yun parça; 4.Almaniyada çay; 5.İt cinsi; 6.Pul vahidi; 9.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı; 13. Rusiya, Ukrayna, Belarusda meşə ərazilərində tirlərdən tikilən qədim ev; 15.Təbii ftoridlər sinfindən nadir mineral. Emal və şüşə istehsalında istifadə olunur; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Ancaq mikroskopla görünə bilən birhüceyrəli orqanizm, bakteriya; 18.Yenidən, bir daha; 20.Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın yumurtaşəkilli turşməzə, sarı meyvəsi; 21.İspan rəssamı. Romantizm dövrünün ən parlaq nümayəndəsi.

**Soldan sağa:** 1.Rusiya Federasiyasının Krasnodar diyarında şəhər; 5.Kamboca yaxınlığında, Siam körfəzində ada; 7.Fizikanın bölməsi; 8.Avropa qitəsində göl; 10.Rəngarəng, ala-bəzək; 11.İtaliyanın 1948-ci il Konstitusiyası ilə qismən regional muxtariyyət verilmiş 20 regionundan biri; 12.Azərbaycanın bariton səsli opera müğənnisi, əməkdar artist. Rusiyanın Dövlət Akademik Böyük Teatrın ilk azərbaycanlı solistinin adı; 14.Ağ buğda unundan bişirilən kökə; 19.Uzunqanadkimilər dəstəsinə aid yeganə quş fəsiləsi. Bu fəsiləyə mənsub quşlar arxaya uça bilir; 21.Alıcıya göndərilən və ya buraxılan malların adı, növü, miqdarı, qiyməti yazılmış siyahını göstərən sənəd; 22.Tibet, Monqolustan və Buryatiyada budda rahibi; 23.Avtomobil markası; 24.Min kiloqram; 25.1704-cü ildən Böyük Britaniyaya məxsus Pireney yarımadası sahilində yerləşən ərazi.



Rusiya, Ukrayna, Belarusda meşə ərazilərində tirlərdən tikilən qədim ev

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Paskal; 2.Taverna; 3.Ronin; 4.Ataman; 5.İndiana *(Evans)*; 6.Molla; 7.Qurban *(Qurbanov)*; 13.Diez; 15.Brodvey; 16.Chanel; 17.İndiqo; 18.Barnav *(Antuan)*; 20.Pirey; 21.Pedro. **Soldan sağa:** 1.Paternalizm; 8.Savanna; 9.Diler; 10.Ayran; 11.Alabama; 12.Banda; 14.Damba; 19.Hepbern *(Odri)*; 21.Proza; 22.Nərd; 23.Qijduvan; 24.Ley; 25.Prokofyev *(Sergey)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

# «TOUR D'AZERBAÏDJAN-2016»

## «Synergy Baku» ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş mötəbər turnirin qalibi oldu

### Mayın 4-də Beynəlxalq Velosipedçilar İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaïdjan-2016» veloyürüşünə start verilib

İlk yarış günü iştirakçılar Dövlət Bayrağı Meydanından start götürməklə Sumqayıt şəhərinədək 154 kilometr məsafə qət ediblər. Məsafəni hamıdan tez başa vuran Almaniyanın «Bora-Argon 18» peşəkar kontinental komandasının üzvü Fil Bauhauz 3 saat 34 dəqiqə 19 saniyə göstərici ilə mərhələnin qalibi olub. ABŞ-ın «İlluminate» komandasının üzvü Skott Sanderlend və Birləşmiş Ərəb Əmirliklərinin «Nəsr Dubay» klubunun nümayəndəsi Luka Vakerman, müvafiq olaraq, 2-3-cü yerləri tutublar. Azərbaycanın «Synergy Baku»




komandasının üzvləri Yannis Tamuridis, Maksim Averin, Matey Müqerli, Matiya Kvasina, Kiril Pozdnyakov və Elçin Əsədov da mərhələni ilk pelotonda başa vurublar. Fotofinişə əsasən ən yüksək göstəricini Yannis Tamuridis əldə edib - 5-ci yer.

Mərhələni qalib kimi başa vuran Fil Bauhauz bununla ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli «Synergy Group» köynəyini ələ keçirib. O, həm də ən yaxşı sprinter kimi yaşıl rəngli «SOCAR», eyni zamanda ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli «AtaHolding» köynəyinə də sahib çıxıb. Ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli «AZAL» köynəyini isə Malayziyanın «Terengganu» klubunun üzvü Saleh Mohd Zamri əldə edib.

Veloyürüşün ikinci mərhələsi də öz gərginliyi ilə yadda qalıb. Bu mərhələdə Azərbaycanın elit yığmasının və «Synergy Baku Cycling Project» kontinental komandasının üzvü, ölkəmizi «Rio-2016» Yay Olimpiya Oyunlarında təmsil edəcək Maksim Averin qalib olub. O, paytaxt Bakıdan İsmayıllıyadək olan 186,5 kilometr məsafəni hamıdan tez qət edib. Marşrutu 4 saat 29 dəqiqə 45 saniyəyə başa vuran M.Averin bununla da finişi onunla eyni vaxtda keçən 6 nəfərlik qrupda hamını qabaqlayıb. İkinci yerə Avstriyanın «Felbermayr» klubunun üzvü, ötən mövsümü «Synergy Baku»nun heyətində keçirən Markus Eybeger sahib olub. İlk üçlüyü İsveçrənin «Roth» pro-kontinental komandasının üzvü Alberto Çeçin tamamlayıb. «Synergy Baku»nun digər üzvləri - Matey Müqerli 9-cu, Matiya Kvasina 13-cü, Kiril Pozdnyakov isə 16-cı olublar. Bu nəticə «Synergy Baku»ya komanda hesabında birinci yerə yüksəlməyə imkan verib. İki mərhələdən sonra ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli «Synergy Group» köynəyini İsrailin «Cycling Academy Team» klubunun üzvü Giliom Buavin ələ keçirib. O, həmçinin ən yaxşı sprinter kimi yaşıl rəngli «SOCAR» köynəyinə də yiyələnib. İtaliyanın «Unieuro Wilier» komandasının nümayəndəsi Mauro Finetto ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli «AZAL» köynəyinə, Rusiyanın pro-kontinental «Gazprom-Rusvelo» komandasının velosipedçisi İldar Arslanov isə ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli «AtaHolding» köynəyinə sahib çıxıb.

Yarışların 3-cü mərhələsi də Azərbaycanın «Synergy Baku» kontinental komandası üçün uğurlu alınıb. İkinci mərhələdə olduğu kimi, yenidən komandamızın üzvü finiş xəttini hamıdan öndə keçib. Bu dəfə Matey Müqerli azarkeşlərə sevinc dolu anlar yaşadıb. Marşrutu 4 saat 18 dəqiqə 44 saniyəyə başa vuran velosipedçimiz bununla da finişi onunla eyni vaxtda keçən 13 nəfərlik qrupda hamını qabaqlayıb. İkinci yerə bir gün əvvəlki kimi, yenidən Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun üzvü, ötən mövsümü «Synergy Baku»nun heyətində keçirən Markus Eybeger layiq görü-



lüb. İlk üçlüyü Birləşmiş Ərəb Əmirliklərinin «NASR-Dubai» komandasının üzvü Luka Vakerman tamamlayıb. «Synergy Baku»nun digər üzvləri - Maksim Averin 12-ci, Matiya Kvasina 20-ci, Kiril Pozdnyakov 22-ci, Yannis Tamuridis isə 30-cu olub. Bu nəticə «Synergy Baku»ya komanda hesabında birinci yeri qorumağa imkan verib. Ümumi təsnifata gəlincə, komanda üzvlərimizdən Maksim Averin 4-cü, Matey Müqerli 7-ci, Matiya Kvasina 12-ci, Kiril Pozdnyakov isə 13-cü olub.

Üç mərhələdən sonra ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli «Synergy Group» köynəyini Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun üzvü Daniel Şorn ələ keçirib. O, həmçinin ən yaxşı sprinter kimi yaşıl rəngli «SOCAR» köynəyinə də yiyələnib. İtaliyanın «Unieuro Wilier» komandasının nümayəndəsi Mauro Finetto ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli «AZAL» köynəyini, Rusiyanın pro-kontinental «Gazprom-Rusvelo» komandasının velosipedçisi İldar Arslanov isə ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli «AtaHolding» köynəyini özündə saxlayıb.

Yarışın kifayət qədər mürəkkəb dağ mərhələsi sayılan dördüncü günündə iştirakçılar saat 10:30-da Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürüblər və 115,3 kilometr məsafə qət etdikdən sonra Vergilər Nazirliyinin Pirquludakı Tədris Mərkəzinin qarşısında finiş xəttini keçiblər. Marşrutu 2 saat 54 dəqiqə 35 saniyəyə başa vuran Birləşmiş Ərəb Əmirliklərinin «NASR Dubai» komandasının italiyalı üzvü Luka Vakerman finişi onunla eyni vaxtda keçən 3 nəfərlik kiçik qrupda hamını qabaqlayıb. İkinci yerə Qazaxıstanın «Astana City» klubunun üzvü Nikita Stalnov layiq görülüb, ilk üçlüyü isə Portuqaliyanın «Tavira» komandasının italiyalı velosipedçisi Rinaldo Noçentini tamamlayıb. «Synergy Baku»nun üzvlərindən Matiya Kvasina 8-ci, Maksim Averin 19-cu, Kiril Pozdnyakov 22-ci, Matey Müqerli isə 26-cı olub.

Dörd mərhələdən sonra ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli «Synergy Group» köynəyini Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun üzvü, ikinci və üçüncü mərhələlərdə finişi ikinci keçən, bu dəfə isə dördüncü nəticə göstərən Markus Eybeger ələ keçirib. Bu siyahıda «Synergy Baku» üzvlərindən Matiya Kvasina 8-ci, Maksim Averin 13-cü, Kiril Pozdnyakov 15-ci,



Matey Müqerli isə 20-ci olub. Ən yaxşı sprinter kimi yaşıl rəngli «SOCAR» köynəyinə «NASR Dubai» komandasının italiyalı üzvü Luka Vakerman yiyələnib. Rusiyanın pro-kontinental «Gazprom-Rusvelo» komandasının velosipedçisi İldar Arslanov ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli «AtaHolding» köynəyini özündə saxlayıb. Qazaxıstanın «Astana City» klubunun üzvü Nikita Stalnov isə ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli «AZAL» köynəyinə layiq görülüb. Dördüncü mərhələdən sonra komanda hesabında «Synergy Baku» ikinci yerdə qərarlaşıb. Komandamız ilk pillənin sahibi, Avstriyanın «Felbermayr - Simplon Wels» klubuna 1 dəqiqə 21 saniyəlik fərqlə uduzub.

Bu mərhələnin qaliblərinə mükafatları veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov, Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev təqdim ediblər.

Start və finiş nöqtəsi «Azadlıq Meydanı»nda olan, paytaxt küçələri ilə keçirilən və 158 km-dən ibarət sonuncu, 5-ci mərhələ öncəsi Avstriyanın «Felbermayr - Simplon Wels» klubuna 1 dəqiqə 21 saniyə uduzan «Synergy Baku»nun əla komanda işi yekunda öz nəticəsini verib. Velosipedçilərimiz nəinki geriliyi aradan qaldırıblar, hətta yekunda «Felbermayr - Simplon Wels»i 7 dəqiqə 14 saniyə qabaqlamağı da bacarıblar.

Fərdi nəticələrə gəlincə, marşrutu 3 saat, 41 dəqiqə, 46 saniyəyə başa vuran Almaniyanın pro-kontinental «Bora-Argon 18» klubunun üzvü Mikael Şvarzman finişi birinci keçib. İsveçrənin pro-kontinental «Roth» komandasının nümayəndəsi Alberto Çeççin 2-ci, Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun velosipedçisi Daniel Şorn isə 3-cü yeri tutub.

«Synergy Baku»nun üzvlərinə gəlincə, mərhələ qalibi ilə eyni vaxt göstəricisinə malik Maksim Averin finişi 4-cü, Matey Müqerli 8-ci, Yannis Tamuridis isə 9-cu keçib. 5 mərhələnin yekununa əsasən, ümumi təsnifatın lideri üçün nəzərdə tutulan mavi rəngli «Synergy Group» köynəyini Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun üzvü Markus Eybeger qazanıb. Bu siyahıda «Synergy Baku» üzvlərindən Matiya Kvasina 8-ci, Maksim Averin 13-cü, Kiril Pozdnyakov 14-cü, Matey Müqerli isə 17-ci yeri tutub.

Ən yaxşı sprinter kimi yaşıl rəngli «SOCAR» köynəyinə Avstriyanın «Felbermayr - Simplon Wels» klubunun üzvü Daniel Şorn yiyələnib. Rusiyanın pro-kontinental «Gazprom-Rusvelo» komandasının velosipedçisi İldar Arslanov ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli «AtaHolding» köynəyinə sahib çıxıb. Yaponiyanın «Bridgestone» klubunun üzvü Tomas Lebas ən yaxşı dağ velosipedçisi kimi qırmızı rəngli «AZAL» köynəyini qazanıb. Ən yaxşı azərbaycanlı velosipedçi üçün nəzərdə tutulan «AzVİF» köynəyini isə yığma komandamızın üzvü Maksim Averin qazanıb.

Qaliblərə mükafatları veloturun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov təqdim ediblər.

Beləliklə, Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2016» veloyürüşü Azərbaycanın «Synergy Baku» kontinental komandasının çempionluğu ilə yadda qalıb. Velosipedçilərimiz ümumi komanda hesabında bütün rəqiblərini qabaqlamaqla, ötən il olduğu kimi, bu dəfə də azarkeşlərə çempionluq sevinci yaşadıblar.

Xatırladaq ki, builki yarışlarda 18 ölkədən 21 komanda iştirak edib. Onlardan 6-sı pro-kontinental, «Synergy Baku» da daxil olmaqla 14-ü kontinental, 1-i isə milli komanda idi.



## Təşkilatçılıq yüksək səviyyədə idi...




Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov «Tour d`Azerbaidjan-2016» veloyürüşündən sonra keçirilən mətbuat konfransında yarışın yeni, daha yüksək mərhələyə qədəm qoymağa hazır olduğunu deyib: «Azərbaycanda idmanın inkişafı üçün dövlət səviyyəsində böyük işlər görülür, Prezident İlham Əliyevin hər bir sahəyə olduğu kimi, velosiped idmanına da böyük dəstəyi var. Buna görə, hər şeydən öncə, təmsil etdiyim qurum adından Prezidentə dərin minnətdarlığımı bildirmək istəyirəm».

Aleksandr Qusyatnikov Azərbaycan turunun qarşıdakı illərdə yeni mərhələyə qədəm qoymağa hazır olduğunu da deyib: «Bunun üçün sadəcə mərhələlərin sayını və məsafəni artırmaq lazımdır. Belə olan halda, Azərbaycana Dünya Turu komandalarını da dəvət etmək olar».

«Tour d`Azerbaidjan-2016»nın texniki direktoru kimi görülən işlərdən tam razı qaldım». Bu sözləri isə yarışın texniki direktoru, Avropa Velosipedçilər Birliyinin fəxri baş katibi Roland Hofer deyib: «İdmançılar üçün yaradılan şəraitdən tam razıyam. Bəli, ötən il müqayisə apararkən «Tour d`Azerbaidjan»da idmançılar üçün yaradılan şəraitin «Tour de France»dan üstün olduğunu qeyd etmişdim. Yenə də fikrimdə qalıram. Şərait çox yüksək səviyyədə idi. Bakı və Qəbələdə idmançılar çox gözəl otellərdə məskunlaşmışdılar. Hətta bizdən asılı olmayan hava şəraiti də əla idi. Çox qısa bir vaxtda yağış yağdı, bu isə bizə heç bir problem yaratmadı. İlk gündən gərgin mübarizəyə şahidlik etdik».

«Azərbaycan artıq böyük tədbirlərə ev sahibliyi etməyə öyrəşib. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dəstəyini xüsusilə qeyd etmək istərdim. Dövlət başçımız daim idmana böyük qayğı göstərir. Bu səviyyəli velosiped yarışları dünyanın çox az sayda ölkəsində keçirilir, Azərbaycan isə bu baxımdan heç bir problem yaşamır. Cənab Fazil Məmmədov Azərbaycan Velosiped İdmanı Federasiyasına rəhbərlik etməyə başlayandan bir il sonra bizdə də beynəlxalq velosiped yarışları keçirilməyə başladı. Artıq dörd il dalbadal keçirilən «Tour d'Azerbaidjan» UCI-nın təqdimində özünə möhkəm yer tutub.

Yarışı yüksək səviyyədə işıqlandırdığına görə mətbuat nümayəndələrinə də təşəkkür edirəm. Komandamızın qazandığı uğurda media işçilərinin də rolu var». Bu sözləri isə «Tour d'Azerbaidjan-2016» veloturunun Təşkilat Komitəsinin sədri, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov mətbuat konfransında çıxışı zamanı deyib. O, komanda hesabında ardıcıl olaraq iki il qalib gələn «Synergy Baku»nun uğurunu yüksək dəyərləndirib: «Bu, Azərbaycanın qələbəsidir. Yarış gərgin mübarizə şəraitində keçdi. Dünyanın bir çox ölkələrindən olan güclü komandalar turnirdə mübarizə aparırdı».